

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 33 (24.415)

*24 avqust 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Örnəyə çevrilən milli məram



*Azərbaycan dövlətinin öz tarixinin ən qüdrətli dövrünü yaşaması tək ölkəmizdə deyil, regionda və dünyada qəbul olunan həqiqətdir. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ötən 21 ildə nail olduğumuz sosial-iqtisadi yüksəlişdən başlamış, Azərbaycanın qlobal miqyasda söz sahibinə, regionun nəqliyyat qovşağına çevrilməsinə və kosmik kluba daxil olmasına qədər nail olduğumuz hər bir möhtəşəm nailiyyət bu reallığı təsdiq edən mühüm siyasi uğurlardır. Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, bu qələbənin davamı kimi ərazi bütövlüyümüzün tam bərpa edilməsi, tarixi yurd yerimiz olan Qarabağda iki əsr əvvəl başlamış mənfur erməni separatizminə son qoyulması isə uğurlarımızın möhtəşəm zirvəsidir.*

***Dövlət və vətəndaş naminə***

Prezident cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasi kursunun nəticəsində tariximizə həkk olunan hər bir uğur və qürur doğuran hadisə həm də müasir Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın Ulu Öndəri Heydər Əliyevin ideyalarının təntənəsi, həyata vəsiqə alması deməkdir. Dahi rəhbər respublikamızı hər zaman ucalarda, zirvələrdə, torpaqlarımızı isə azad görmək istəyirdi. Prezident cənab İlham Əliyev bunu təmin etməklə həm də Ulu Öndərin arzusunu çin etdi, ata vəsiyyətini yerinə yetirdi.

Beləliklə, xalqımız tariximizin dinamik sosial-iqtisadi inkişafla əlamətdar olan şanlı dövrünü, ən əsası, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizə mərhələsini şərəflə, layiqincə başa vurdu. Və indi biz haqlı olaraq yaşadığımız yeni inkişaf mərhələsindən və bu mərhələdəki məsuliyyətimizdən, qarşımızda dayanan vəzifələrdən bəhs edirik.

Bu mərhələdə əsas hədəflərdən biri azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışıdır. Ötən 4 ilə yaxın dövrdə Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işlərinin miqyası olduqca əzəmətli və qürurvericidir. Laçın, Füzuli, Şuşa və Xocalı şəhərlərinə, Zəngilanın Ağalı, Laçının Zabux və Sus, Tərtərin Talış kəndlərinə qayıdışın təmin olunması Qarabağ və Şərqi Zəngəzurun sürətlə yenidən qurulmasından xəbər verir. İndiyədək 7 min nəfərdən artıq keçmiş məcburi köçkünün doğma yurduna qayıdışı göstərir ki, Prezident cənab İlham Əliyevin qətiyyəti, iradəsi və quruculuq əzmi ilə işğaldan azad edilmiş ərazilərimizdə həyat yenidən canlanır.

Bununla yanaşı, yeni çağırışlar əsasında sosial-iqtisadi yüksəlişin davamlılığının təmin olunması, "yaşıl enerjiyə" keçidin sürətləndirilməsi, insan kapitalının inkişafı, inklüziv və müasir innovasiyalara əsaslanan intibah tariximizin yeni mərhələsinin əsas hədəfləri sırasında yer alan milli vəzifələrdir. Qeyd edilən bu istiqamətlər üzrə proseslərin uğurlu gedişi perspektivdəki nailiyyətlərdən xəbər verir. Lakin onu da qürur hissi ilə qeyd etməliyik ki, dövlətimiz və xalqımız yeni dövrə, qarşıda dayanan yeni vəzifələrin yerinə yetirilməsinə tarixin ağır mirası olan problemləri layiqincə yoluna qoymuş, əvvəlki dövrlərin zəngin təcrübəsi ilə daha da güclənmiş, milli qürurunu, ləyaqətini bərpa etmiş halda – alnıaçıq, üzüağ daxil olur. Bu baxımdan davamlı inkişaf, ardıcıl nailiyyətlər və önümüzdəki böyük hədəflərə çatmaq üçün qarşımızda keçilməsi qeyri-mümkün maneələr yoxdur.

Səhifə → 8-9

## Regional təhlükəsizlik, qarşılıqlı anlaşma prinsipləri ilə – Azərbaycan-Rusiya müttəfiqliyi



Səhifə → 2

## "YAŞAT" Fondu türkiyəli və azərbaycanlı şəhid ailə üzvlərini Naxçıvanda bir araya gətirib



Səhifə → 5

## Naxçıvanın "Yaşıl enerji" konsepsiyası hazırlanır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda muxtar respublikanın "Yaşıl enerji" konsepsiyasının hazırlanması,



dövlət-özəl tərəfdaşlığı ilə alternativ və bərpa olunan enerji mənbələrinin yaradılmasının davam etdirilməsi, yeni istilik elektrik stansiyasının tikintisi nəzərdə tutulub.

Muxtar respublikanın "Yaşıl enerji" konsepsiyasının hazırlanması məqsədilə məsləhətçi şirkətlərin cəlb edilməsi üçün Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən dövlət satınalması həyata keçirilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin mətbuat xidmətindən "Şərq qapısı"na verilən məlumata görə, Naxçıvan Muxtar Respublikası ərazisində "Yaşıl enerji" layihələrinin reallaşdırılması üçün Əmlak Məsələləri Dövlət Xidmətinin təklif etdiyi əkinə yararsız torpaq sahələri də müəyyənləşib. Belə ki, muxtar respublikada müəyyən olunmuş ərazilərdə, ümumilikdə, 7992 hektar əkinə yararsız torpaq sahələrində "Yaşıl enerji" layihələrinin reallaşdırılması mümkün olacaq.

## Prezident İlham ƏLİYEV:

***"Yeni şərait Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülhün bərqərar olması üçün yeni imkanlar açır. Bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır."***



# Prezident İlham Əliyev: Ölkələrimiz müttəfiqlər, dostlar, yaxın tərəfdaşlar və qonşular kimi fəaliyyət göstərir

## *Regional təhlükəsizlik, qarşılıqlı anlaşma prinsipləri ilə – Azərbaycan-Rusiya müttəfiqliyi*

Yetmiş il bir ittifaqda yer alan Cənubi Qafqazın lideri, regionda kifayət qədər söz haqqına, nüfuza malik Azərbaycanla dünyanın ikinci ən güclü hərbi qüdrətinə malik Rusiyanın diplomatik əlaqələrinin tarixi ötən əsrin 90-cı illərindən, daha dəqiq desək, 1992-ci il aprelin 4-dən başlayır. Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan şimal qonşusu ilə daha da sıx əməkdaşlıq münasibətləri yaratmağa nail olub. Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında 1997-ci il iyulun 3-də imzalanan "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə" ikitərəfli münasibətlərin hüquqi bazasını təşkil edən əsas sənəd kimi əlaqələrin təməl prinsiplərini müəyyənləşdirib və eyni zamanda da sonrakı dövrdə regionda yeni reallıqların yaranmasında müstəsna əhəmiyyət daşıyıb...

Azərbaycan-Rusiya ikitərəfli əlaqələrinin inkişafına təkan verən bir sıra mühüm addımların atıldığı, icrası güclü perspektivlər vəd edən, effektiv nəticələr verən dövlət sənədlərinin imzalandığı son 5 il xüsusi vurğu gərəkdirir. Bu baxımdan 2020-ci ildə ölkəmizin tarixi ədaləti bərpa etdiyi 44 günlük Vətən müharibəsi zamanı Rusiyanın ötən əsrin 90-cı illərindən fərqli siyasi mövqe sərgiləməsi, sülhə çağırışları mühüm fakt kimi diqqəti çəkir. Məhz həmin il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasında da şimal qonşumuzun əvəzsiz rolu danılmazdır ki, bunun hərbi əməliyyatların dayandırılaraq prosesin siyasi müstəvidə həllinə yol açıldı. Bütün bunların davamı olaraq Qarabağda Rusiya sülhməramlılarının missiyasını vaxtından əvvəl başa çatdırması və ölkəmizin ərazisindən çıxarılması, sərhədlərin delimitasiyası işinə başlanılması Prezident cənab İlham Əliyev diplomatiyasının növbəti uğuru kimi tarixə düşməklə həm də Vladimir Putinlə şəxsi əlaqələrin möhkəmliyindən, sarsılmazlığından xəbər verir... Təqdirəlayiq gerçəklikdir ki, Azərbaycan dəyişən dünya düzənində, hazırkı həssas məqamda paralel şəkildə həm Avropa, həm də region ölkələri, o cümlədən də Rusiya ilə yaxşı, isti münasibətlər qurmağı bacarır. Bu diplomatik gedişlər bir sıra siyasi dairələrin, politoloqların, media nümayəndələrinin heyrətinə səbəb olur. Təsadüfi deyil ki, ukraynalı ekspertlər də Azərbaycanın yürütdüyü müdrik siyasəti nümunə gətirir və Prezident cənab İlham Əliyevin xüsusi diplomatik məharəti nəticəsində Azərbaycanın Qərblə Rusiya arasında münaqişə zonasına çevrilmədiyini və öz milli məqsədlərinə nail olduğunu qeyd edir, bunu yüksək qiymətləndirirlər...

Məlum olduğu kimi, 2022-ci il fevralın 22-də imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"dən sonra ikitərəfli əlaqələr müttəfiqliq səviyyəsinə yüksəlib. Elə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri çərçivəsində avqustun 19-da Azərbaycan Prezidenti cənab İlham Əliyevlə məhdud, geniş tərkibdə keçirilən görüşlərdə, mətbuata bəyanatlarda dünyada cərəyan edən hazırkı hadisələrin fonunda siyasi dairələrə, elitaya ünvanlanan mühüm mesajlardan biri də bu oldu ki, münasibətlərimiz hələ 2022-ci ilin əvvəlində imzalanan Bəyannamə əsasında inkişaf edir, uğurla yerinə yetirilir və cənab İlham Əliyevin bu ilin aprelində Moskvaya səfəri zamanı ikitərəfli münasibətlərin inkişafına yaxşı təkan verilib. İqtisadi-ticari əlaqələrin uğurlu inkişafından söz açan Putin birgə fəaliyyət istiqamətlərinin çox olduğunu vurğuladı. İkitərəfli gündəlik, həm də regional təhlükəsizliklə bağlı mühüm məsələlər üzrə geniş fikir mübadiləsi apardıqlarını diqqətə çatdıran Azərbaycan Lideri də ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin səviyyəsindən məmnunluğunu dilə gətirdi. Ümumilikdə, həm məhdud və geniştərkibli görüşlərdə, həm də imzalanmış sənədlərin mübadiləsi mərasiminin ardından mətbuata bəyanatlarda da hər iki lider müttəfiqlik əlaqələrinin bütün istiqamətlər üzrə inkişafından razılıqlarını və əməkdaşlığın daha da genişlənəcəyini vurğuladılar. Ölkə başçısı cənab İlham Əliyev Azərbaycan və Rusiyanın müttəfiqlər, dostlar, yaxın tərəfdaşlar və qonşular kimi bütün sahələr üzrə səmərəli, nəticəyönümlü fəaliyyət göstərdiyini bildirdi. Sitat: ***"2022-ci ilin fevralında imzaladığımız müttəfiqlik qarşılıqlı fəaliyyət haqqında Bəyannamə uğurla yerinə yetirilir, həm siyasi, həm də iqtisadi sahədə çox müsbət dinamika, yaxşı rəqəmlər görürük. Əlbəttə, həm energetika, həm nəqliyyat sahələrində əməkdaşlıq edirik, humanitar əlaqələrə, həmçinin bir çox digər sahələrə xüsusi diqqət yetiririk".***

Bəli, hər iki dövlət başçısının fikirlərindən yola çıxaraq deyə bilərik ki, ümumiyyətlə, ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş, müstəqil siyasət yürüdən Azərbaycanla BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan və çoxqütblü dünya nizamında öz yerini qoruyub saxlayan Rusiya arasında əlaqələr çoxşaxəlidir, genişdir və bu baxımdan təbii olaraq iqtisadi əməkdaşlığın çəkisi ilbəil daha da böyüyür. Ticarət-nəqliyyat əlaqələrindən söhbət açan zaman təməl daşına Ümummilli Liderimiz Heydər Əliyevin imzası möhürlənən və bu il ölkə başçısı cənab İlham Əliyevin də iştirakı ilə 50 illik yubileyi təntənə ilə qeyd olunan Baykal-Amur Magistralının əhəmiyyətini xüsusi qeyd etməsək olmaz. Məhz 1982-1987-ci illərdə, özünün sonralar "Kreml beşilliyi" adlandırdığı mərhələdə reallaşdırdığı bu "Əsrin layihəsi", eləcə də digər misilsiz işlər sayəsində Ulu Öndər MDB ölkələrinin, xüsusilə Rusiya kimi böyük dövlətin bugünkü inkişafına mühüm töhfə verməklə həm də hər bir rus vətəndaşının sevgisini qazanaraq xalqlarımız arasında sarsılmaz mənəvi körpü yaratdı. Və həmin körpü sayəsində daha da yaxınlaşan Azərbaycan, Rusiya liderləri – cənab İlham Əliyev və Vladimir Putin bu gün vahid qərarlar qəbul edərək hər iki ölkəni yeni inkişaf mərhələsinə çıxarmaqda, regiona kənar müdaxilələrin qarşısını almaqda israrlıdırlar və buna nail olurlar.

Bu gün Azərbaycan-Rusiya əməkdaşlığı hər iki ölkənin iqtisadiyyatının inkişafı baxımdan müsbət nəticələrini verməkdədir. Ticarətin asanlaşdırılması və ticarət axınının şaxələndirilməsi, gömrük və sərhəd-keçid infrastrukturunun təkmilləşdirilməsi, dövlət sərhədindən yük daşımalarının həcminin, habelə buraxılış məntəqələrinin keçirmə qabiliyyətinin artırılması və digər istiqamətlərdə görülən tədbirlər nəticəsində artıq ölkələrarası ticarət-iqtisadi əlaqələrinin dayanıqlı inkişaf dinamikası təmin edilib. Müqayisə üçün bir neçə fakta diqqəti çəkmək olar: 2017-ci illə müqayisədə ötən il Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi iki dəfədən çox artaraq rekord həddə – 4,4 milyard dollara çatıb. Cari ilin yanvar-iyul aylarında isə bu göstərici 2 milyard 572,8 milyon dollar təşkil edib. Nəqliyyat-ticarət əlaqələrinin gücləndirilməsinə mühüm töhfələr verən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin də önəmi ilbəil daha da bariz şəkildə özünü göstərməkdədir. Belə ki, bu dəhliz vasitəsilə 2022-ci ilədək yükdaşımaların həcmi səkkiz dəfə, 2023-cü ilin altı ayı ərzində isə 60 faiz artıb. Ümumilikdə isə 2023-cü ildə dəhliz üzrə 9,3 milyon ton yük daşınıb. Avqustun 19-da mətbuata bəyanat zamanı dövlətlərarası münasibətlərimiz üçün də müstəsna əhəmiyyətə malik olan, həmçinin regional nəqliyyat dəhlizləri, nəqliyyat yolları ilə bağlı məsələləri ətraflı müzakirə etdiklərini diqqətə çatdıran dövlətimizin başçısı dəhlizin imkanlarının daha böyük olduğunu vurğulayıb: ***"Deməliyəm ki, Azərbaycanın ərazisində "Şimal-Cənub" dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu seqmentləri tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırda bu dəhlizin ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuluq. Biz ildə 15 milyon ton və daha çox – 30 milyon tonadək yüklərin daşınması imkanlarından danışırıq və bu, tamamilə realdır".***

Son illərdə birgə sənaye kooperasiyası layihələrinin reallaşdırılması da ölkələrarası iqtisadi əlaqələrin gücləndirilməsində mühüm rol oynayır. Belə ki, Rusiyanın Azərbaycandakı şirkətləri yeni istehsal sahələri, xidmət mərkəzləri yaradaraq sənaye sahəsində daha geniş əməkdaşlığa töhfə verir. Hazırda Azərbaycanda Rusiya kapitallı 1300 müəssisə fəaliyyət göstərir. Rusiya investorları tərəfindən Azərbaycan iqtisadiyyatına 4 milyarddan çox birbaşa investisiyalar yatırılıb. Ümumilikdə isə onu demək olar ki, iki ölkə arasında ticarət, sənaye, energetika, investisiya qoyuluşu, nəqliyyat, logistika, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq yüksələn xətlə inkişaf edir və strateji tərəfdaşlığımız indiyədək imzalanmış 300-ə yaxın sənədə əsaslanır. Bu xüsusda cari ilin yanvarında imzalanan "Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi"nin əhəmiyyətini də önə çəkmək lazımdır. Həmin xəritə müxtəlif istiqamətlər üzrə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı konkret addımların atılmasını nəzərdə tutur. Avqustun 19-da keçirilən görüşlərin ardından AZPROMO ilə Rusiya Birbaşa İnvestisiyalar Fondunun idarəedici şirkəti arasında Anlaşma Memorandumu, ekologiya, əmək qanunvericiliyi, qida təhlükəsizliyi, bitkiçilik, səhiyyə, tibbi təhsil və tibb elmi sahələrində sənədlərin imzalanması da bu yol xəritəsinin tərkib hissəsi kimi, əməkdaşlığın yeni müstəviyə keçməsinə təkan verəcək...

Mühüm dövlət sənədləri əsasında iqtisadi sahədə əməkdaşlıq əlaqələrini quraraq ticarət dövriyyəsini ilbəil daha da çoxaldan Azərbaycan və Rusiya dəfələrlə bəyan edildiyi kimi, regionda təhlükəsizliyə, sabitliyə, əmin-amanlığa töhfə vermək əzmiylə çalışırlar. Vladimir Putinin ikigünlük səfərindən gələnən nəticə də odur ki, bu iki mehriban qonşu, dost ölkə bundan sonra da ümumi inkişafda əsas faktorlardan sayılan sözügedən amilləri müttəfiqlik əlaqələrində vahid prinsiplər kimi rəhbər tutacaqlar. Ölkə başçısı cənab İlham Əliyevin də dediyi kimi: ***"Yeni şərait Cənubi Qafqazda möhkəm və uzunmüddətli sülhün bərqərar olması üçün yeni imkanlar açır. Bütün Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik bir çox hallarda Rusiya ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyətdən asılıdır".***

**Nail ƏSGƏROV**

# Prezident İlham ƏLİYEV:

*“Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır.”*



# Qətiyyətli hərbi-siyasi iradənin parlaq ifadəsidir

# LAÇIN



26 avqust. Müasir dövrümüzün, müstəqillik tariximizin şanlı səhifələrinə qızıl hərflərlə möhürlənən, əbədilik qazanan, unudulmaz təqvimlərdən biri. Müzəffər Ali Baş Komandanın hərbi-siyasi qətiyyətinin təntənəsi, xalq-dövlət həmrəyliyinin misilsiz töhfəsi. 30 il öncə sinəsini tankın, topun önünə sipər edən atanın nərəsinin, naəlac baxışları övladının üzərinə dikilən biçarə ananın fəryadının “dəmir yumruğ”a dönüb düşmənin başına çaxıldığı gündü bu gün. Qalib Azərbaycan hərbçisinin “Möhtərəm Prezident! Cənab Müzəffər Ali Baş Komandan! Əmrinizə əsasən Azərbaycan Ordusu Laçın şəhərini, Zabux və Sus yaşayış məntəqələrini tam nəzarətə götürdü!” mübarək şüarının düşməni lərzəyə gətirdiyi, bədxah qüvvələrin canına vəlvələ saldığı, “Ay Laçın, can Laçın”ın “tez solan gülü”nün yenidən çiçək açdığı, qəhərin sevinc göz yaşlarından qorxub qaçdığı, əbədi vüsal günəşinin şölə saçdığı gündür bu gün...

Bu gün sənin günündür, əziz Laçın! Haqqında uydurulan iftiraların, yalanların, ədalətsizliklərin sona yetdiyi, haqqın batil üzərində parlaq zəfər çaldığı gündür. “Yaşasın Azərbaycan!”, “Təki Vətən sağ olsun!” deyən, Vətənin azadlığı yolunda 10 övladı olsa, 10-nu da qurban verməyə hazır olan ağbirçək ananın, çiyinlərində üçrəngli bayraqla qalib, qazi kimi dönən övladını şəstlə qarşılayan başıdik, alnıaçıq ağsaqqal atanın, müqəddəs amal uğrunda gözünü qırpmadan şəhidlik şərbətini içən qeyrətli oğulların günüdür. Təqvim səndən danışır, əziz elim, əziz obam. Düşündükcə tarixi anlar dilə gəlir, yaşananlar gözdən süzülən iki qətrə sevinc yaşlarında bərq vurur. Xatirələr qanadına əyləşib bir daha o unudulmaz, əvəzolunmaz anlara qayıdırıq yenidən, mərhum sənətkar Məhəbbət Kazımovun məşhur, dillər əzbəri “Laçınım” mahnısında deyildiyi kimi, qartal olub göylərində uçmaq, bulaq olub gözlərindən süzülmək keçir könlümüzdən. Necə də təkrarolunmaz, ifadəolunmaz hisslərdir, İlahi, deyirik, dönə-dönə şükranlıq edərək...

Əziz yurdum, axşamların daim belə aydın, sabahların inamlı olsun. Qarabağımızın ən təmtəraqlı bağrında gözəllik işığıtək parlayır, şəfəq saçırsan gecə-gündüz. Nəfəsin rahat, həvəsin azaddır. Kədərlə vidalaşıb, sevinclə əhd-peyman bağlamısan, səmanda qartallar xoşbəxtlikdən qıy vurur, leyləklər doyunca qanad çalır, qaranquşlar nəğmə deyir, xoş, məlahətli zümzüməsi ilə qəlb oxşayır Həkəri çayı, yaşılbaş sonaların şən-şaqraq səslərinə bürünüb göllərin, ceyranların, maralların oylağına çevrilib çöllərin. Neçə-neçə oğul-qızların qoynunda məskən salır, toy mağarları, çadırlar qurulur, könül bağları birləşir, yeni ailələrin təməli atılır, körpə səsləri eşidilir ocaqlarından. Rəssamlar təbiətindən ilham alır, şairlər günü-gündən büsatlanan simana şeirlər qoşur, bəstəkarlar nağmələr bəstələyir hüsnü-camalına. Uzun illərdən sonra ucalan gözəl, yaraşıqlı məktəblərində ilk zəng çalınır, dahi Üzeyirin bəstələri, Bülbülün, Xanın mahnıları səslənir, Vaqifin, Natəvanın misraları çınlayır sinif otaqlarında. Bağçalarının, bağlarının üzərindən daha güllələr uçuşmur, güllər pərvaz edir, sinəsi yad ayaqlardan təmizlənib öz doğmalarını qoynuna alaraq Şərqi Zəngəzurun əsl dağlar gözəlinə bənzəyirsən, əziz yurdum. Ölkə Prezidenti cənab İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın hər gəlişi ilə yenilənir, gözəlləşir, daha da xoşbəxt görünüşə, büsatlı mənzərəyə qərq olursan. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçısı olduğu “Xarıbülbül” festivalına Şuşa ilə bərabər ev sahibliyi edərək mədəniyyətimizin, milli mənəvi dəyərlərimizin yaşadılması, folklorumuzun təbliği yolunda mühüm xoşməramlı missiyanı uğurla, adına layiq şəkildə daşıyırsan. Dövlət başçımızın, birinci xanımın sakinlərlə səmimi söhbətində ən xoş arzulara, ən ülvi diləklərə çevrilirsən: “Allah Sizi qorusun ki, Siz bu cənnəti almısınız”, “Doğrudan da, cənnətdir”, “Cənnətdir”, “Laçın şəhəri indi gündən-günə daha da gözəlləşir. Azad edilmiş bu ərazilərdə şəhərlər elə olacaq ki, heç paytaxt şəhərlərdən də fərqlənməyəcək”.

Əziz torpağım, Ali Baş Komandanın da dediyi kimi, Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Laçının azadlığı qətiyyətli hərbi-siyasi iradənin parlaq ifadəsi, təntənəsidir. 44 günlük müharibədə bütün dünyaya göstərdik ki, biz xalq olaraq nəyə qadirik, torpaqlarımızı hərbi-siyasi yolla, zorla, güclə azad etmişik və bununla fəxr edirik, bütün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bununla qürur duyur. Ölməz, məğrur şairimiz Mikayıl Müşfiqin də dediyi kimi:

*Mənim könlüm deyir ki,*
*Hələ bunlar nədir ki...*
*Böyük günlər, şanlı günlər, şən günlər,*
*Yoluna düşən günlər,*
*Hələ qarşımızdadır!*

Azərbaycanımızın hər yerində, Naxçıvanda, Şuşada, Xankəndidə, bütün Qarabağda, o cümlədən də Laçında ucalan, Zəfərimizin rəmzi sayılan üçrəngli bayrağımızın əbədi dalğalanması, Qələbəmizin, qüdrətimizin, hərməyliyimizin, ərazi bütövlüyümüzün, suverenliyimizin əbədiyyət qazanması diləyi ilə! Günün mübarək olsun, əziz Laçın!

**Nail ƏSGƏROV**





## Xeyirxah əməllər sahibi

Mən Allahverdiyeva Bülbül Məhəmmədəli qızı 1941-ci ildə Babək rayonunun Zeynəddin kəndində anadan olmuşam.

Yaşım 80-ni ötüb. Bu səksən ildə nələr görməmişəm. Çətinliklərlə də rastlaşmışam, problemlər də yaşamışam. Ancaq ölkəmiz müstəqillik qazanandan sonra, demək olar ki, işlərimiz yoluna qoyulub. Günümü, demək olar ki, televizor qarşısında keçirirəm. Yaşımın bu vaxtı sevinirəm ki, ölkəmiz hərtərəfli inkişaf edir. Televiziya kanallarında da ən çox bu cür verilişlərə baxıram. Belə inkişafda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük rolu var. O, əsl Azərbaycan qadınına məxsus keyfiyyətlərə malikdir. Məhz Azərbaycan qadını kimi ölkəmizin tərəqqisinə töhfələrini verir. Məktəblər açdırır, imkansız ailələrlə görüşür və onlara yardımlar edir. Şəhid və qazi ailələrində olub, onların valideynləri ilə görüşür. Problemləri ilə yaxından maraqlanır, yerindəcə həmin problemlərin həll olunmasını təmin edir. Milli-mənəvi dəyərlərimizin təbliği, onların yaşadılması da Mehriban xanımın diqqət göstərdiyi sahələrdir.

İdmançılarımızın, musiqiçilərimizin, digər sahələrdə çalışanların əməyini yüksək qiymətləndirir. Bütün bunlara görə də xalqımız onu çox sevir. Allah ona uzun ömür, cansağlığı versin ki, belə xeyirxah işlərini davam etdirsin.

**Mehriban ƏLİYEVA:**

***"Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı Vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var".***



# Mərhəmət rəmzi



Azərbaycan qadını tarixboyu öz mərdliyi, ağlı ilə seçilib. Bu xalq mərd oğulların anaları, həyat yoldaşları ilə daim qürur duyub. O da həmin mərd, mətanətli xanımlardandır. Böyüdüyü və gəlini olduğu ailələrin gözəl xüsusiyyətlərini öz əməllərində birləşdirən Mehriban xanım.

"Bizim Mehriban", – deyir Azərbaycan xalqı bu gözəl xanıma. Xalqı ilə bir gülüb bir ağlayan hər kəsin qeydinə qalan qızıl insana. Ali Baş Komandan ilə cəbhə bölgəsində görənlər bu mərd xanımı daha da yaxından tanımağa başladılar. Hərbi forma geyinərək döyüş bölgəsinə gəlməklə xalqın sevgisini qazandı. Qolunu itirmiş qazinin əli, gözünün nurunu Vətənə qurban verən zabitin gözünə nur oldu Mehriban Əliyevanın qayğısı. Gözü yaşlı şəhid anasının yanında dayanıb onun göz yaşını silib, şəhid balasını qucaqlayıb bağrına basdı. Düşmən gülləsinə tuş gəlib yarı canını Vətənə qurban edən oğulları xəstə yatağında ziyarət edib onlara güc verdi.

Ali Baş Komandanla bərabər yuxusuz gecələr keçirib ona dayaq oldu. Azərbaycan qadınının əsalətini, dönməzliyini, qəhrəmanlığını sübut etdi.

***Şəhid ailələrinə dövlətin diqqət və qayğısı hər zaman yüksək olub***

Bu diqqət və qayğının bariz nümunəsini Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva göstərir. Onun xidmətlərinin sevinci yüzlərlə şəhid ailəsinin ömür səhifəsinə yazılıb, neçə-neçə ailəyə səadət bəxş edib, onlara həyat eşqi verib, qəlblərdə işıqlı sabaha inam yaradıb.

İnsanlara təmənnasız yaxşılığı, qayğısı, mərhəməti, ehtiyacı olanlara əl tutması, xeyriyyəçiliyi onun siyasətinin prioritetidir. Əlbəttə ki, hər bir şəhid ailəsi qəhrəmanlarımızın bizlərə əmanətidir. Hər kəs bu əmanətə hörmət etməyə, qayğı göstərməyə çalışmalıdır. Bizlərə ən mükəmməl örnək Mehriban xanımdır. Birinci vitse-prezidentin uğurla reallaşdırdığı möhtəşəm xeyriyyəçilik missiyası onu milyonların sevimlisinə çevirib və bu əməllər Azərbaycan qadınının humanizm, mərhəmət kimi dəyərlərə malik olduğunu növbəti dəfə nümayiş etdirir.

***Vətənə əmanət edilən balaların ən böyük himayədarı olan xanım***

Vətənimiz 44 günlük müharibədə igid oğulların qəhrəmanlığına şahid oldu. Onlar üzünü görmədiyi balalarını Vətənə əmanət edib Azərbaycan xalqının gələcəyi olan uşaqlara bütöv bir Vətən yadigar qoydular. Kimi qundaqda balasını, kimi dünyaya hələ gəlməyən, kimisi isə məktəbə, universitetə qədəm atması arzusu ilə yaşadığı övladını əmanət etdi bu Vətənə. İlk sözü ata olan körpələr ata əvəzinə soyuq məzar daşı qucaqlayanda Azərbaycan xalqı minnət duydu həmin körpələrə. Onların ən böyük himayədarı isə gözəl ana, qayğıkeş nənə Mehriban xanım oldu. Heydər Əliyev Fondunun dəstəyi ilə şəhid övladları qayğı ilə əhatə edildi. Onlar üçün müxtəlif layihələr əsasında tədbirlər təşkil edildi. Sağlamlıqları diqqətdə saxlanıldı. Qarşılaşdıqları bütün çətinliklər həll edildi. Təkcə "Mənim atam qəhrəmandır" layihəsindən Azərbaycanın müxtəlif bölgələrindən olan onlarla şəhid övladı yararlanır.



***Müharibə əlillərinə maddi-mənəvi dəstək***

Mehriban xanım Əliyevanın bu kateqoriyadan olan insanlara göstərdiyi qayğı genişmiqyaslıdır. Erməni işğalçıları ilə döyüşdə əlil olmuş şəxslərə maddi-mənəvi dəstək, onların sağlamlığının bərpasına lazımi diqqət də Mehriban xanım Əliyevanın humanizm fəaliyyətinin əsasını təşkil edir.

Müharibə əlillərinin əksəriyyəti Birinci vitse-prezidentin köməyi ilə dünyanın nüfuzlu xəstəxanalarında müalicə alır. Heydər Əliyev Fondu "Döyüşlərdə yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini həyata keçirir.

Birinci vitse-prezident protezlərlə təmin olunan hərbçilərlə görüş zamanı vurğulamışdır ki, dövlət onların fəaliyyətini yüksək qiymətləndirir, belə mərd və cəsarətli oğulların olması ilə fəxr edir. Hərbçilərimizin apardığı mübarizə haqq mübarizəsidir. Onların vətənpərvərliyini, qəhrəmanlığını, şücaətini yüksək dəyərləndirən Heydər Əliyev Fondunun prezidenti hər zaman bu insanlara dəstək olacağını söyləmişdi: ***"Siz hər bir insan üçün çox dəyərli olan sağlamlığınızı Vətən, torpaq yolunda qurban vermisiniz. Siz güllələr, bomba altında Azərbaycan uğrunda, torpağımız, Vətənimiz uğrunda həyatınızı qurban verməyə hazır olmusunuz. Mən fəxr edirəm ki, Azərbaycanın belə oğulları var, mənim belə qardaşlarım var".***

**✍ Ramiyə ƏKBƏROVA**



# "YAŞAT" Fondu türkiyəli və azərbaycanlı şəhid ailə üzvlərini Naxçıvanda bir araya gətirib







Cari ilin 21-24 avqust tarixlərində "YAŞAT" Fondunun təşkilatçılığı, Azərbaycanın milli daşıyıcısı "Azərbaycan Hava Yolları"nın, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin, Türkiyə Respublikasının Gənclik və İdman Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının tərəfdaşlığı, "Nar"ın sponsorluğu ilə Naxçıvanda düşərgə keçirilir.

Layihə Azərbaycan-Türkiyə sahəvi əməkdaşlığının sistemləşdirilməsi və dərinləşdirilməsinə dair fəaliyyət istiqamətləri və Azərbaycan-Türkiyə əməkdaşlığına dair qəbul edilmiş Fəaliyyət Planına əsasən icra olunur.

Düşərgə çərçivəsində 15-17 yaş aralığında 50-yə yaxın türkiyəli və azərbaycanlı şəhid ailə üzvləri 4 gün ərzində Naxçıvan Muxtar Respublikasında bir araya gələcəklər.

Bununla əlaqədar layihə iştirakçıları 21 avqust tarixdə Heydər Əliyev Beynəlxalq Hava Limanından yola düşüblər.

Proqram müddətində iştirakçılar müxtəlif ekskursiya və gəzintilərdə iştirak edəcəklər.

Açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov iştirak ediblər.

Bildirilib ki, Azərbaycan ilə Türkiyə arasında bütün sahələr üzrə əməkdaşlığın, dostluğun və qardaşlığın bariz nümunəsi kimi belə layihələrin "YAŞAT" Fondu tərəfindən davamlı həyata keçirilməsi nəzərdə tutulur.

# Naxçıvan Teleradiosunun kollektivi Prezidentə məktub ünvanlayıb




"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin kollektivi ölkə başçısının 2024-cü il 15 avqust tarixli Fərmanı ilə bağlı cənab Prezident İlham Əliyevə minnətdarlıq məktubu ünvanlayıb. Həmin minnətdarlıq məktubu Prezidentin rəsmi internet səhifəsində dərc olunub.

"Şərq qapısı" Naxçıvan Teleradiosu kollektivinin Prezident İlham Əliyevə ünvanladığı məktubu təqdim edir:

"Hörmətli cənab Prezident.

Sizin 2024-cü il 15 avqust tarixli Fərmanınızla "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti – "Naxçıvan TV" televiziya yayımçısı kimi, "Naxçıvan Radiosu" isə radio yayımçısı kimi audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının siyahısına daxil edilib. Bu Fərman Sizin rəhbərliyinizlə ölkəmizdə uğurla həyata keçirilən media islahatlarının davamı, Naxçıvan Teleradiosunun həyatında mütərəqqi hadisə, region mediasının inkişafına göstərdiyiniz yüksək diqqət və qayğınızın təzahürüdür.

Yüz ilə yaxın yaşı olan Naxçıvan Teleradiosu çox dəyərli ziyalılar, elm və incəsənət xadimləri yetişdirmiş, bu maarif və mədəniyyət məbədinin inkişafında Ulu Öndər Heydər Əliyevin xüsusi rolu və böyük xidmətləri olmuşdur. Ötən əsrin 90-cı illərində – çətin və böhranlı günlərdə həm Naxçıvanın, həm də Ümummilli Lider Heydər Əliyevin haqq səsini dünyaya çatdıran əsas media qurumu kimi Naxçıvan Televiziyası milli məfkurə, dövlətçilik və müstəqillik yolunda mühüm bir missiyanı uğurla yerinə yetirmişdir. Naxçıvan Televiziyası bu gün də maarifçilik, milli-mədəni dəyərlərin, tariximizin təbliğində fəal iştirak edir, Sizin rəhbərliyinizlə uğurla reallaşdırılan sosial-iqtisadi islahatlara, böyük quruculuq və qayıdış proqramlarına, ölkəmizin və cəmiyyətimizin inkişafına, vətənpərvərlik hisslərinin yüksəldilməsinə uyğun proqram siyasəti aparır, peyk yayımını həyata keçirməklə daha geniş auditoriyaya nüfuz etməyə hazırlaşır.

Göstərilən yüksək diqqət və qayğıya görə kollektivimizin, bütün Naxçıvan əhalisinin, tamaşaçılarımızın adından minnətdarlığımızı bildirir, daha geniş informasiya məkanında Sizin rəhbərliyinizlə dövlətimizin apardığı uğurlu siyasətin carçısı kimi çıxış edəcəyimizin qürurunu yaşayırıq.

Azərbaycanın Zəfər tarixinin memarı, Müzəffər Ali Baş Komandanımızla fəxr edirik.

Hörmətlə,

*"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin kollektivi.*

*Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhəri".*

# Naxçıvanda *"İctimaiyyətlə əlaqələrdə effektiv kommunikasiya"* mövzusunda təlim keçirilib





Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, "Naxçıvan Təlim Mərkəzi"nin təşkilatçılığı və Naxçıvan Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə muxtar respublikanın dövlət orqanlarında çalışan mətbuat işçiləri üçün təlim keçirilib.Təlimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova bildirib ki, məqsəd məlumat istehsalı və istehlakı proseslərində savadlılıq anlayışının müasir dövrün tələblərinə uyğunlaşdırılması, media savadlılığı göstəricilərinin yüksək səviyyəyə çatdırılması, eləcə də sağlam media mühitinin inkişafı və cəmiyyətdə məlumat təhlükəsizliyinin təmin edilməsidir. Təlimin mövzu aktuallığını və əhəmiyyətini diqqətə çatdıran Günay Nəzərova iştirakçılara uğurlar arzulayıb.

"Naxçıvan Təlim Mərkəzi" İdarə Heyətinin sədri Tağı Tağızadə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasının təmin edilməsi məqsədilə rəhbərlik etdiyi publik hüquqi şəxsin yaradılmasının əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, qurum muxtar respublikanın dövlət orqanlarında çalışan işçilərin peşəkar inkişafının dəstəklənməsi, gənclərin şəxsi və peşəkar inkişafı üçün müxtəlif mövzularda kursların təşkili və təlimlərin keçirilməsi, eyni zamanda peşə qabiliyyətlərinin yüksəldilməsi məqsədilə fəaliyyət göstərir.

Təlimin ilk hissəsində Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin Naxçıvan Regional İdarəsinin rəhbəri Vəfa İsgəndərova böhran vəziyyətində kommunikasiyanın qurulması və kommunikasiya alətlərindən düzgün istifadə, böhran vəziyyətinin idarə edilməsi üçün tələb olunan şərtləri iştirakçıların diqqətinə çatdırıb. O, böhran vəziyyətlərdə dövlət qurumları arasında koordinasiyanın vacibliyini qeyd edib.

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" QSC sədrinin müavini İlhamə Novruzovanın təqdimatında "Mətbuat konfransının, press-relizin, təqdimatın hazırlanması" mövzusu ilə təlim davam edib.

Təlimin yekununda iştirakçılara sertifikatlar təqdim olunub.

✍ **Bülbül QULİYEVA**

# Nazirlər Kabinetində bir sıra aktlar qəbul edilib

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddinin təsdiq edilməsi və "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının, rayon (şəhər) təhsil şöbələrinin, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və rayon təhsil şöbələrinin Mərkəzi mühasibatlığının ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 yanvar tarixli Qərarında dəyişiklik edilmişdir.

***

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin sərəncamında olan və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin balansına verilməsi nəzərdə tutulan ləğv edilmiş Kəngərli və Sədərək rayon baytarlıq şöbələrinə məxsus əsas vəsaitlərin Siyahısı" təsdiq edilmişdir.




# Ulu Öndərin adını daşıyan fondun uğurlu bəhrəsi

Azərbaycan təhsilinin yüksək sürətlə inkişafının təməlində, şübhəsiz, Ulu Öndər Heydər Əliyevin ideyaları və həmin ideyalar əsasında həyata keçirilən siyasətin strateji kursu dayanır. Bu uğurlu siyasətin bünövrəsi müasir Azərbaycan Respublikasının memarı, Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyularaq bu gün Prezident cənab İlham Əliyevin təhsilə göstərdiyi qayğı və Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxşaxəli layihələrlə davam etdirilir. Azərbaycan təhsilinin uğurlu nəticələr qazanmasında, heç şübhəsiz, Heydər Əliyev Fondunun misilsiz xidmətlərinin böyük rolu var. Fond bütün ölkədə böyük rəğbətlə qarşılanan “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı, “İnternat məktəblərinin inkişaf proqramı”, “Təhsilə dəstək”, ümumiyyətlə, dövlət maraqları baxımından müstəsna əhəmiyyətə malik bir sıra layihələri uğurla gerçəkləşdirib. Fondun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd Azərbaycanda bu sahəni inkişaf etdirərək beynəlxalq səviyyəyə çatdırmaqdır. “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi həyata keçiriləndən sonra, hətta respublikamızın ən ucqar regionlarında da hər cür ləvazimatlarla təchiz olunmuş, müasir tələblərə cavab verən məktəblər tikilib istifadəyə verilib. Müasirtipli məktəblərin inşası, tədris prosesində normal şəraitin yaradılmasının zəruriliyi bu sahədə böyük nailiyyətlər əldə olunmasına şərait yaradıb.



Hər tədris ilində Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə ölkəmizdə müasir standartlara cavab verən təhsil müəssisələrinin inşasının və əsaslı təmir olunaraq müəllimlərin, şagirdlərin ixtiyarına verildiyinin şahidi oluruq. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən Ulu Öndərin adını layiqincə daşıyan Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəb dövlət qayğısı ilə əhatə olunun məktəblər sırasındadır. Bu təhsil ocağında yaradılan, müasir və innovativ yeniliklər, gənclərin savadlı, zəngin dünyagörüşlü və vətənpərvər ruhda böyüməsi üçün mütərəqqi və milli əsaslara söykənən yeni təhsil metodlarından səmərəli istifadə hər il məktəbi bitirən məzunların uğurlu nəticələr göstərməsinə bilavasitə şərait yaradır.

Məlumdur ki, cəmiyyətin hər bir üzvünün şəxsiyyət kimi formalaşması, təhsil-tərbiyə yolu orta məktəbdən başlayır. Ölkə başçısı cənab İlham Əliyev çıxışlarında həmişə vurğulayır ki, təhsil infrastrukturunu yeniləşdirmədən, müasirtipli yeni məktəblər inşa etdirmədən, dünya ölkələrinin mütərəqqi təhsil ənənələrini nəzərə almadan gənc nəslin intellektual inkişafına nail olmaq mümkün deyil. Bütün təhsil ocaqları kimi, Heydər Əliyev adına məktəbin də müasir avadanlıqlarla, təlim keyfiyyətinə əhəmiyyətli təsir göstərən laboratoriya, kitabxana, idman infrastrukturu ilə təmin edilməsi kimi məsələlər daim dövlət siyasətinin prioriteti olub.

Bu il 20 illik yubileyi təntənə ilə qeyd olunmuş Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəb 2004-cü ilin  sentyabr ayında müəllim və şagirdlərin istifadəsinə verilib. Açılış mərasimində Ulu Öndər Heydər Əliyevin təhsil sahəsində müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev iştirak edib. Bu, sadəcə, bir məktəb binasının istifadəyə verilməsi deyildi, Ümummilli Liderimizin təşəbbüsü ilə tikilən və həm də onun adına ucaldılan bir abidənin açılışı idi. Açılış mərasimində iştirak edən dövlət başçısı deyib: ***“Bu məktəb çox yüksək səviyyədə tikilmiş və ən müasir dünya standartlarına cavab verir. Bu həm memarlıq baxımından gözəl binadır, eyni zamanda burada yüksək səviyyədə təhsil almaq üçün hər cür şərait vardır. Bu məktəbin tikintisi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanıb. Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli məktəb olsun”.***



Ölkə başçısının bu sözlərini pedaqoji kollektiv özünün fəaliyyət proqramına çevirib. Bu səbəbdəndir ki, hər tədris ili yüksək nəticələrlə başa çatır. Məktəbin ilk ən böyük nəticəsi isə ölkəmizdə “Ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsinin qalibi olmasıdır.

Heydər Əliyev adına tam orta məktəbin muxtar respublikada digər təhsil ocaqları üçün bir nümunə olduğu hər kəsə məlumdur. Ulu Öndərin adını daşıyan məktəbdə təhsil almaq böyük şərəf, şagirdlərə elmlərin sirlərini öyrətmək isə böyük məsuliyyətdir. Pedaqoji heyətin qarşısında müstəqil Azərbaycanın gələcək təminatçılarını yetişdirmək kimi mühüm vəzifə dayanır. Burada müəllimlərin vəzifələri təkcə sistemli biliklərin verilməsi ilə məhdudlaşmır, onlar həm də müstəqil Azərbaycan üçün vətənpərvər gənclər hazırlayırlar. Bu təhsil ocağı, eyni zamanda mühüm tərbiyə mərkəzi funksiyasını daşıyır, gənclərin cəmiyyətin layiqli üzvü kimi yetişdirilməsinə səy göstərilir.

Vətənpərvər gənclik dövlətin gücü və onun əsas dayağıdır. Bu gün Heydər Əliyev adına tam orta məktəbdə təhsil alan şagirdlərə, məktəbi bitirən məzunlara baxarkən qürur duyuruq. Fəxr edirik ki, gənclərimiz sabahımızın təminatçısı kimi yetişir, Vətənə, Azərbaycançılıq idealına sadiqlik ruhunda tərbiyə olunurlar.




Məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi, “Heydər Əliyevin 100 illiyi” yubiley medallı Məlahət Rüstəmova söhbət zamanı deyir: “Azərbaycan təhsilinin yeni inkişaf mərhələsinə qədəm qoyması Ulu Öndərin siyasi xəttini bütün sahələrdə uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində mümkün olub. Təhsilin inkişafını dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirən cənab İlham Əliyevin belə diqqət və qayğısının bəhrələrini muxtar respublikamızın timsalında da görmək olar. Belə ki, son illər qədim diyarımızda 200-dən artıq təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub, məktəblər ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Həyata keçirilən tədbirlər məzunların buraxılış imtahanlarında yüksək nəticələr əldə etmələrinə şərait yaradıb. Məktəblərimiz müasir informasiya-kommunikasiya texnologiyaları və zəngin kitabxana fondu ilə təchiz olunub. Ümumtəhsil məktəblərimizin hamısında elektron lövhə, kompüter quraşdırılıb və internetə qoşulub.

Müasir maddi-texniki bazanın formalaşdırılması təhsildə mütərəqqi üsulların tətbiqinə geniş imkanlar açıb. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilir, gənclər elmi biliklərlə yanaşı, milli və mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər. Bütün bunlar təhsildə qazanılan uğurların təməlində dayanan amillərdir. Bizim məktəbin kollektivi də bu imkanlardan səmərəli istifadə etməyə səy göstərir”.

Bildiyiniz kimi, məktəbin yaradılmasının 20 illik yubileyi münasibətilə 2024-cü il 8 may tarixli Sərəncamla Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə məktəbin bir neçə müəllimi “Əməkdar müəllim” fəxri adı ilə təltif olunub. Onlardan  Azərbaycan Respublikasının Əməkdar müəllimi Xublar Tarışova məktəblilərin qazandıqları uğurlardan danışır: “Məktəbin kollektivi təhsil ocağında ölkə Prezidentinin tövsiyələrini əldə rəhbər tutaraq milli təhsilimizin tərəqqisi naminə çalışır, müstəqil dövlətimizin gələcəyi üçün bilikli, vətənpərvər, müstəqilliyimizin keşiyində durmağı vətəndaşlıq borcuna çevirən gənclər yetişdirilməsi üçün bütün imkanlarını səfərbər edir. Məktəbin müəllimləri unutmurlar ki, burada görülən hər bir iş Ulu Öndərin adına, Onun ideyalarına layiq olmalıdır. İl ərzində məktəbi yüksək qiymətlərlə bitirənlərdən fərqlənmə attestatı, “Qızıl” və “Gümüş” medal alan məzunlar etimadı yüksək səviyyədə doğruldurlar”.

Əməkdar müəllim əlavə edir: “Ötən tədris ilində 1104 nəfər şagirdin təhsil aldığı Heydər Əliyev adına tam orta məktəbdən tam orta təhsil səviyyəsi üzrə 69 nəfər məzun olmuş, onlardan 11 nəfəri fərqlənmə attestatı almış, 2 nəfər “Qızıl” medala namizəd göstərilmişdir. Bütün məzunların ali məktəblərə qəbul üçün sənəd verdiyi və yüksək ballar topladığı məktəbin məzunlarından16 nəfəri 500-700 bal arası nəticə göstərib. Təhsil ocağının qazandığı uğurlar belə deməyə əsas verir ki, pedaqoji kollektiv məsuliyyətini dərindən dərk edir, işini dahi rəhbərin adına layiq səviyyədə qurmağa səy göstərir. Elə bu səbəbdəndir ki, Heydər Əliyev adına tam orta məktəb ölkəmizin ən yaxşı məktəbləri sırasında layiqli yerini qorumaqdadır”.

*Ulu Öndərimiz Heydər Əliyev deyirdi:* ***“Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz”.*** *Heydər  Əliyev adına tam orta məktəbin kollektivi görkəmli dövlət xadiminin bu tövsiyəsini əldə rəhbər tutaraq hər il olduğu kimi uğura nail olmaq əzmi ilə çalışır. Məktəbin uğuru isə cəmiyyətin uğurudur.*

**Gülcamal TAHİROVA**

# Uğurlu nəticə qazanmağa heç nə əngəl deyil



Fiziki imkanları məhdud uşaqlara ölkəmizdə hər zaman diqqət və qayğı  göstərilir, onların  düzgün tərbiyə olunmalarına, qarşılaşdıqları problemlərin aradan qaldırılmasına, hərtərəfli təhsil almalarına dövlət səviyyəsində nəzarət edilir. Bunlar arasında autizmli uşaqlar da var və onların cəmiyyətə inteqrasiya olunması üçün hər cür dəstək göstərilir.

“Şərq qapısı” qəzetinin bu sayında fiziki imkanı məhdud yeniyetmə Rüstəm Rüstəmovdan  söz açacağıq. Naxçıvan şəhərində doğulan Rüstəm  hazırda 5 nömrəli tam orta məktəbin 8-ci sinfində təhsil alır. Dərslərini əla oxuyan Rüstəmin ən böyük marağı isə musiqiyədir. O, fortepianoda müxtəlif musiqilər ifa edə bilir. Ən sevdiyi isə “Sarabande” əsəridir.  Onu da deyək ki, Rüstəmin musiqi duyumu qədər əl qabiliyyəti də var, rəsm əsərləri çəkir, plastik qablardan əl işləri hazırlayır. Deyir ki, bu əl işlərini hazırlamaqla daxili aləmini zənginləşdirir. Rüstəm bu yolda ən böyük dəstəyi isə atasından alır. Həmsöhbətimizin ən böyük arzusu gələcəkdə musiqiçi olmaqdır. Bunun üçün də öz üzərində kifayət qədər  çalışır. Bizimlə söhbət zamanı onu da qeyd etdi ki, hər gün atası ilə birgə idmanla məşğul olaraq sağlamlığının da qeydinə qalır.



Rüstəm böyük sevinc hissi ilə deyir ki, yaxınlarda tamaşada aktyor kimi iştirak edib. Uğurlu nəticəsinə görə ona sertifikat verilib.

Qeyd edək ki, Rüstəm sinif yoldaşlarına, bacısına və ətrafındakı bütün insanlara qarşı səmimi və mehribandır. Müəllimlərinə isə xüsusi sevgi bəsləyir. Ona ən böyük dəstəyi Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi həyata keçirir. Burada uşaqlara böyük sevgi və qayğı ilə yanaşılır, onların təlim-tərbiyəsinin, təhsilinin, sağlamlığının, sosial müdafiəsinin yüksək səviyyədə təşkilinə hərtərəfli şərait yaradılır, hüquqlarının qorunması, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Fiziki imkalarının məhdud olması bu insanlar üçün əngəl deyil.

**Bülbül QULİYEVA**

# Qazilərin məşğulluğunun təmin olunması ilə bağlı tədbir keçirilib



Naxçıvan Biznes Mərkəzində "Naxçıvan Qaziləri" İctimai Birliyinin təşkilatçılığı ilə qazilərin uyğun iş yerləri ilə təmin edilməsi, məşğulluğunun artırılması ilə bağlı tədbir keçirilib. Tədbir başlamazdan öncə Vətən uğrunda canından keçən qəhrəman şəhidlərin və Ulu Öndərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca Dövlət Himni səsləndirilib.

Birliyin sədr müavini Əli Əlisoy tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən təşkil edilən 2024-cü il üzrə müsabiqələrdə Naxçıvan Dövlət Universitetinin əsas tərəfdaşı olduğu "Naxçıvan Qaziləri" İctimai Birliyinin "Naxçıvanda müharibə veteranları ilə iş" layihəsi kiçik qrant müsabiqəsinin qalibi olub. Layihənin əsas məqsədlərindən biri də qazilərin peşə bacarıqlarını inkişaf etdirmək, onların yeni peşələr öyrənməsinə imkan yaratmaq, qazilərin uyğun iş yerləri ilə təmin edilməsi, məşğulluğunun artırılmasıdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Fərid Bağırzadə çıxış edərək deyib ki, dövlətimizin şəhid ailələrinə və Vətən uğrunda sağlamlığını itirən oğullara qayğı göstərməsi Ümummilli Liderimiz Heydər Əliyevin siyasətinin əsas istiqaməti olub. Bu gün bu miras Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da Vətən üçün canından keçən oğulların ailələrinin, sağlamlığını itirən hərbçilərin qayğısına qalınır.

Nazir müavini onu da diqqətə çatdırıb ki, 2024-cü ilin yanvar-iyul ayları ərzində Naxçıvan Muxtar Respublikasında 12 nəfər müharibə ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxsə avtomobil təqdim olunub. Həmçinin müvafiq kateqoriyadan olan 28 şəxs 100-ə yaxın texniki və köməkçi reabilitasiya vasitələri ilə təmin edilib. 4 qaziyə protez və ortez xidməti göstərilib, 29 nəfərə reabilitasiya vasitələri verilib. 24 qazinin Əlillərin Bərpa Mərkəzində və digər reabilitasiya mərkəzlərində müalicəsi təşkil edilib. Müvafiq kateqoriyadan olan şəxslərin məşğulluğunun təmin edilməsi üçün də işlər aparılıb. Belə ki, cari ilin ötən dövrü ərzində 22 qazi və 3 şəhid ailəsi üzvü özünüməşğulluq proqramına cəlb olunub, 13 qazi və 7 şəhid ailəsi üzvü işlə təmin edilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək bildirdi ki, təhsil ocağı 75 peşə üzrə qazilərimizi təlimlərə cəlb edə bilər. Universitetin tələbələri arasında qazilərimiz də var. Qeyd olunub ki, universitetdə yaxın vaxtlarda böyük bir təhsil mərkəzi açılacaq. Qazilərimiz də həmin mərkəzdən istifadə edə bilərlər.

Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifəsinin icraçısı Rahid Ələkbərli çıxışında diqqətə çatdırıb ki, qazilərin müvafiq təlimlərə cəlb olunaraq iş yerləri ilə təmin olunmasında nazirlik də köməkliyini əsirgəməyəcək. Qazilərlə görüşlər təşkil edilərək, onlara müxtəlif təlimlər keçirilərək dəstək olacaqlar.

Tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifəsinin icraçısı Məcid Seyidov bildirib ki, nazirlik şəhidlərimizin adı ilə bağlı turnirlər keçirir. Yeniyetmə gənclərin vətənpərvərlik ruhunda böyüməsi üçün müxtəlif tədbirlər görür.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini Tapdıq Əliyev qazilərin diqqətinə çatdırıb ki, nazirliyin tabeliyində olan qurumlar da öz səlahiyyətləri çərçivəsində onlara hər cür kömək etməyə hazırdır.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin daxili nəzarət üzrə auditi Aqil Qəribov, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin şöbə müdiri Tahir Məmmədli çıxış edərək təmsil etdikləri nazirliklərin iş prinsipi haqqında məlumat verdilər.

Sonda qaziləri maraqlandıran suallar cavablandırılıb, qarşılıqlı söhbət aparılıb.

✍ **Ramiyə ƏKBƏROVA**

# "Ordubad" və "Tivi" Su Elektrik stansiyalarında tikinti-quraşdırılma işləri davam etdirilir

Muxtar respublikada daha əvvəldən tikinti-quraşdırma işləri davam etdirilən 36 meqavat "Ordubad" SES və 15,6 meqavat "Tivi" SES-də işlərin davam etdirilməsi üçün, eyni zamanda dövlət-özəl tərəfdaşlığı ilə yeni istilik elektrik stansiyasının, alternativ və bərpa olunan enerji mənbələri üzrə külək və günəş elektrik stansiyalarının qurulması istiqamətində Dövlət Proqramında aidiyyəti üzrə prioritet istiqamətlər müəyyənləşdirilib. İşlərin icrası üçün ilkin mərhələdə layihələndirmə işlərinin aparılması üçün müvafiq məsləhətçi şirkətlərlə danışıqlar aparılıb.

Dövlət Energetika Xidmətinin mətbuat xidmətindən "Şərq qapısı"na verilən məlumata görə, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti mövcud layihədə işlərin gücləndirilməsi, daha dəqiq və keyfiyyətli yerinə yetirilməsi üçün Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi "AzərDövlətSənayeLayihə" Dövlət Layihə İnstitutu ilə müqavilə imzalayıb. Müqaviləyə uyğun olaraq "AzərDövlətSənayeLayihə" Dövlət Layihə İnstitutunun əməkdaşları Tivi Su Elektrik Stansiyasında olublar.

Burada tikinti işlərinin davam etdirilməsi üçün aparıcı kanal, tunel, su təmizləyici bənd çökərtmə hovuzu hissəsində mövcud layihənin gücləndirilməsi işləri də daxil olmaqla daha dəqiq və keyfiyyətli yerinə yetirilməsi üçün 26 nöqtədən nümunələr götürülərək axtarış işləri və geoloji hesabatlar tərtib olunur.



# Muxtar respublikaya 147769 ədəd dərslik gətirilib



2024-2025-ci tədris ilinə hazırlıqla bağlı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində bir sıra işlər görülür. Görülən işlərdən biri də növbəti tədris ili üçün şagirdlərin dərsliklərlə təminatı məsələsidir.

Məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Gültəkin Rüstəmli "Şərq qapısı" qəzetinə açıqlamasında bildirib ki, nazirlik tərəfindən ümumtəhsil məktəblərində dərslik tələbatı əvvəlcədən müəyyənləşdirilərək sifariş verilib: "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən iyulun 31-də 147769 ədəd dərslik muxtar respublikaya daxil olub, həmin dərsliklər adları və siniflərinə müvafiq olaraq çeşidlənib. Hazırda həmin dərsliklərin şəhər və rayon təhsil şöbələrinə paylanılması prosesi uğurla icra olunur. Bu proses yekunlaşdıqdan sonra isə təhsil şöbələri tabeliklərində olan təhsil müəssisələrinə kitabları təhvil verərək şagirdlərin dərsliklərlə təminatını həyata keçirəcək".

Müsahibimiz onu da vurğulayıb ki, növbəti tədris ili üçün həm Azərbaycan, həm də rus bölmələrinin müəyyən sinifləri üçün bəzi dərsliklər yenidən hazırlanıb və ya təkmilləşdirilib: "Onlardan VI sinif coğrafiya, VII sinif kimya, biologiya və fizika dərslikləri Sinqapurun dərslik sahəsindəki mütəxəssisləri, V sinif ingilis dili dərsliyi isə Kembric Universitetinin mütəxəssisləri tərəfindən hazırlanıb. Həmin dərsliklərdə digər qabaqcıl təhsil institutlarının tətbiq etdiyi öyrənmə üsullarından istifadə olunub. Sözügedən dərsliklərdə yeni yanaşmalardan, pedaqoji texnologiyalardan da geniş şəkildə istifadə edilib. Bunlarla yanaşı, yeni dərsliklər şagirdlərin yaş səviyyəsinə uyğun olaraq hazırlanıb. Dərsliklərdə əlavə nəzəri biliklərdən çox istifadə edilməyib, mövzular şagirdlərin yeni biliklərini necə istifadə etməsini, bacarıqlarının formalaşmasını hədəfləyib. Həmçinin II sinif həyat bilgisi, V sinif riyaziyyat, V və IX sinif Azərbaycan dili, Azərbaycan tarixi, ədəbiyyat, informatika, ingilis, alman, fransız və rus dilləri, IX sinif ümumi tarix dərslikləri də yenilənib", – deyə nazirlik əməkdaşı diqqətə çatdırıb.

✍ **Bülbül QULİYEVA**

# Naxçıvanda ilk beynəlxalq məktəb: Kembric məktəbi

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamında həyata keçirilməsi nəzərdə tutulmuş mühüm məsələlərdən biri də Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin fəaliyyətə başlaması olub. Bu sahədə aparılan islahatların nəticəsi kimi Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbinə Kembric Beynəlxalq Təhsil proqramı ilə 2024-cü ilin sentyabr ayından etibarən 1-ci və 6-cı siniflər üçün tədrisin həyata keçirilməsi istiqamətində beynəlxalq lisenziya verilib. Hazırda dünyanın 160 ölkəsində milyonlarla uşaqların təhsil aldığı, təxminən, on min Kembric Məktəbi vardır. Həmin Beynəlxalq Kembric məktəbləri şagirdlərə təhsildə uğur qazanmaq, gələcək karyeranı müəyyənləşdirmək üçün aydın bir yol açır. Məktəbi bitirərkən şagirdlər ingilis dili ilə yanaşı, modern dünya dillərindən ən azı birinə mükəmməl şəkildə yiyələnirlər.

Kembric Məktəbinin direktoru Bayram Əliyevlə söhbətimizdə öyrəndik ki, bir neçə beynəlxalq proqramın arasından Kembric proqramının seçilməsinə səbəb həmin proqramın Azərbaycan təhsil sisteminə daha uyğun olmasıdır: – Ötən ilin iyun ayında biz Bakı şəhərində bir neçə Kembric Məktəbində bu təhsil ocaqlarının iş təcrübələri ilə yaxından tanış olduq. Sözügedən proqramın Beynəlxalq məktəbdə tədrisi üçün bir neçə mərhələdən keçməli idik ki, ilk mərhələ Kembricə müraciət idi. Və bu kifayət qədər uzun vaxt və çox resurs tələb edən bir prosesdir: müraciət, sənədlərin hazırlanması və sair. Məktəbin idarəetmə forması, laboratoriyaları, informasiya texnologiyalarından istifadə səviyyəsi, imtahan materiallarının qorunma və saxlanma şəraiti Kembric proqramı ilə bağlı lisenziya almaq üçün önəmli meyarlar idi. Və bizim məktəb bu standartları tam ödəyirdi.



İkinci mərhələ isə Kembric Məktəbinə şagirdlərin hazırlanması mərhələsi idi ki, 5 yaşlılar və 5-ci sinifdə oxuyan uşaqlar üçün 1 il müddətində ingilis dili dərsləri keçirildi. Bu mərhələdə dərslər peşəkar və savadlı müəllimlər tərəfindən tədris olundu. Hər ayın sonu şagirdlərin ingilis dili səviyyələrini ölçmək üçün imtahanlar və valideyn iclasları keçirdik. Hər ay şagirdlərlə yanaşı, müəllimlərin akademik performansı yoxlanıldı.



3-cü mərhələ isə müəllimlərin bu proqram üçün hazırlanması idi ki, biz buna da uğurla müvəffəq olduq.

Kembric lisenziyasını aldıqdan sonra Kembric resurslarına çıxış əldə etdik. Və bu bizim müəllimlərin tədris proqramını həyata keçirməsi üçün olduqca vacib meyardır. Bununla məktəbimizin müəllimləri həm Kembric resurslarından istifadə edir, həm də öz üzərlərində çalışaraq özlərini inkişaf etdirirlər.

Bayram müəllimin sözlərinə görə, Kembric məktəblərində təhsil ödənişlidir. Bu təhsil ocağında isə ödəniş minimum məbləğdə hesablanıb. Əldə olunan vəsait isə müəllimlərin professional şəkildə inkişafına, infrastrukturun modernləşməsinə, şagirdlərin tədrisinə sərf ediləcək.

Oxucularımızın diqqətinə çatdıraq ki, bu il Kembric Məktəbinə I və VI sinif şagirdlərinin qəbul imtahanı keçirilib. VI siniflər üçün qəbul imtahanı test şəklində aparılıb. Bütün suallar ingilis dilində tərtib olunub. Şagirdlərə 20 dinləmə, 10 qrammatika, 30 riyaziyyat sualı, 3 oxu mətni və ona aid suallar olmaqla, 90 sual təqdim olunub. Eyni zamanda danışıq imtahanı keçirilərək yekun 100 bal intervalında dəyərləndirilib. I siniflər üçün isə ətraf aləmlə tanışlıq, ilkin riyazi biliklər, ingilis dili əlifbası və onun tələffüzü, ətrafdakı əşyaları tanımaq və özlərini təqdim etmələri ingilis dilində sual-cavab şəklində həyata keçirilib.

Sözügedən məktəb haqqında təəssüratlarını öyrənmək üçün məktəbə ilk qəbul zamanı keçid balını əldə edən şagirdlərdən birinin valideyni İlkay xanımla əlaqə saxladıq. O dedi: "Oğlum Tofiq Əliyev Kembric Məktəbinə 52 bal toplayaraq qəbul olunub. Bizim bu məktəbi seçməkdə məqsədimiz odur ki, bu təhsil müəssisəsi bizə gələcəkdə oğlumun 2 beynəlxalq dili mükəmməl şəkildə bilməsini vəd edir. Eyni zamanda düşünürük ki, bu məktəb övladımıza həyat üçün lazım olan bacarıqları verəcək, beləliklə, məktəbdə, universitetdə və gələcək iş həyatında böyük nailiyyətlər qazanmasına kömək edəcək".

Uşaqların yüksək zəkaya və sağlam düşüncəyə sahib olmaları Kembric Məktəbinin əsas hədəfidir.

✍ **Aygün RÜSTƏMOVA**

# Örnəyə çevrilən milli məram

*“Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar”.*

**Mehriban ƏLİYEVA**





*(əvvəli 1-ci səhifədə)*

Belə dönəmdə sosial statusundan, siyasi və dini mənsubiyyətindən asılı olmayaraq, hər bir azərbaycanlının qarşısında dayanan ən mühüm vətəndaşlıq vəzifəsi respublikadakı inkişaf proseslərinə dəstək vermək, Prezident cənab İlham Əliyevin siyasi kursu ətrafında daha sıx səfərbər olmaqdır.

Bu kontekstdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın mükəmməl örnəyə çevrilən fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Həm vətəndaş, həm şəxsiyyət, həm də bir məmur kimi Azərbaycanın siyasi-ictimai həyatında çox mühüm rol oynayan Mehriban xanım Əliyevanın fəaliyyət sferası əhatəli və məzmunludur. Onun Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyasının sədrinin birinci müavini, Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, ISESCO-nun Xoşməramlı səfiri kimi daşıdığı böyük missiyanın mərkəzində yalnız dövlətə və insanlara xidmət məramı dayanır. Mehriban xanım Əliyevanın hər bir təşəbbüsü, layihəsi, addımı məhz dövlətimiz, xalqımız və insanlıq üçündür. Onun cazibədar uğur hekayəsini şərtləndirən və eyni zamanda ona xalqın rəğbətini qazanmağa əsas verən amillər də bu missiyanın möhtəşəm nəticələridir.

### *Yüksək mənəvi ideallarn daşıyıcısı*

Mehriban xanım Əliyevanın xalqımızın maraqlarına xidmət edən ictimai fəaliyyəti ötən əsrin 90-cı illərindən başlayır. Hələ 1995-ci ildə onun yaratdığı Azərbaycan Mədəniyyət Fondunun əsas məqsədi milli incəsənətimizi inkişaf və təbliğ etdirmək, xarici ölkələrdə daha geniş tanıtmaq idi. Elə bu məqsədlərin özü birinci xanımın daşıdığı məsuliyyətin yüksək mənəvi təcəssümüdür və onun milli-mədəni dəyərlərimizə nə qədər bağlı oldğunu göstərir. Bu sırada hörmətli Mehriban xanımın təşəbbüsləri ilə Azərbaycan muğam sənətinin, xalq musiqisinin qorunması, inkişafı, təbliği istiqamətində görülən işləri, milli və mədəni dəyərlərimizin UNESCO-nun irs siyahısına salınmasını xüsusi qeyd etməliyik. Bu baxımdan Mehriban xanıma milli mədəniyyətimizin yalnız fəal təbliğatçısı deyil, həm də onun əzmkar qoruyucusudur desək, yanılmarıq. Bütün bunlarla Mehriban xanım maddi və mənəvi mədəni irsimizin əsl sahiblərinin məhz xalqımız olduğunu dünyaya bəyan edir.

Bəli, böyük elm xadimi, akademik Arif Paşayevin və tanınmış şərqşünas alim Aida xanım İmanquliyevanın ailəsində dünyaya göz açan, ruhunda milli qürur və iftixar mənbəyimiz olan böyük ədibimiz Mir Cəlal Paşayevin və Nəsir İmanquliyevin mənəvi gücü dayanan, Ümummilli Liderimiz Heydər Əliyevin və Zərifə xanım Əliyevanın daim yanar ocağından nur alan, Prezident cənab İlham Əliyev kimi həyat yoldaşı olan Mehriban xanım Əliyevanın malik olduğu mənəvi ideallar da başqa cür ola bilməzdi.

Ötən əsrin 90-cı illərinin ortalarından bəri genişmiqyaslı, sistemli, ardıcıl layihələrlə milli mədəniyyətimizi dünyada təbliğ edən Mehriban xanıma Azərbaycan cəmiyyətində dərin ehtiram qazandıran, dünyaya daha yaxından tanıtdıran mühüm cəhətlərindən biri isə onun xeyriyyəçiliyi, qayğıkeşliyi, insanlara təmənnasız yaxşılığı, nəcibliyi, maddi dəstəyə ehtiyacı olanların hər zaman yanında olmasıdır. Vətəndaşların sosial məsələlərinə olduqca həssas münasibətidir. Xeyirxahlıq, mərhəmət və şəfqət kimi anlayışlar onun həyat fəlsəfəsinin ayrılmaz hissəsidir. Təsadüfi deyil ki, Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunu Azərbaycan və onun hüdudlarından kənarda məhz xeyirxahlıq məbədi kimi tanıyırlar.

Heydər Əliyev Fondu qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, miqyasına və sambalına görə Azərbaycanda, ümumiyyətlə isə Cənubi Qafqazda analoqu olmayan qurumdur. Əsas məramı Ulu Öndər Heydər Əliyevin ideyalarının yaşadılması, irsinin davam etdirilməsi olan fond fəaliyyətə başladığı 2004-cü ilin may ayından ötən dövrdə reallaşdırdığı layihə və proqramlarla Azərbaycanda müxtəlif istiqamətlərdə həyata keçirilən dövlət siyasətinin daha böyük uğurlar qazanmasına, cəmiyyətimizdə yüksək əhvali-ruhiyyənin və vətəndaş məmnuniyyətinin təmin olunmasına layiqli töhfələr verməkdədir.

Heydər Əliyev Fondu yarandığı ilk gündən insanlara qayğı və təmənnasız xidmət məramını prioritet vəzifə kimi qarşıya qoyan birinci xanım öz təşəbbüslərini əhalinin aztəminatlı təbəqələrinə, xəstə və valideyn himayəsindən məhrum olmuş uşaqlara, qocalara və ehtiyacı olanlara kömək göstərilməsinə yönəldir. Müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların yenidən sağlam həyata qayıdışı üçün Bakıda Psixonevroloji Uşaq Mərkəzinin, Talassemiya Mərkəzinin, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin, Autizm Spektr Pozuntulu Uşaqlar üçün Bərpa Mərkəzinin və onlarla müxtəlif xəstəxanaların inşası, uşaq evlərinin, qocalar evlərinin bərpası və ya yenidən qurulması, “Talassemiyasız həyat naminə” və “Diabetli uşaqlara ən yüksək qayğı” layihələri çərçivəsində müxtəlif tədbirlərin təşkili, indiyədək Heydər Əliyev Fondunun çoxsaylı insanların müalicə xərclərini öz üzərinə götürməsi, onların müalicə üçün xarici ölkələrin tibb müəssisələrinə göndərilməsi Mehriban xanımın milli genefondumuzun qorunması ilə bağlı əvəzolunmaz xidmətlərinin, həm də onun insan sevgisinin, nəciblik və mərhəmət kimi ülvi dəyərlərə malik olmasının göstəricisidir.

Ötən 20 ildən artıq müddətdə Heydər Əliyev Fondunun xətti ilə ölkəmizin dörd bir yanını əhatə etməklə “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində yüzlərlə məktəb binasının inşası, o cümlədən uşaq bağçası, internat evləri və xəstəxana binalarının tikintisi və ya yenidən qurulması, tarixi, mədəni və dini abidələrin bərpası birinci xanımın təhsilimizin, milli genefondumuzun və tarixi irsimizin qorunmasına və inkişafına yönəlik vətəndaşlıq mövqeyindən xəbər verir. Bunlar həm də Prezident cənab İlham Əliyevin inkişaf strategiyasının daha böyük uğur qazanmasına xidmət edən əsl vətəndaşlıq missiyasının real təcəssümləridir.

Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi məzmunlu, tutumlu tədbirlər isə erməni yalanlarının ifşa edilməsində, Xocalı soyqırımının dünyada tanıdılmasında mühüm rol oynamaqla xarici siyasətimizin daha böyük uğur qazanmasına xidmət edib. Bu işdə Mehriban xanımın təşəbbüsləri hər birimiz üçün həm də Vətəni sevməyin mükəmməl örnəyidir.

Fondun fəaliyyəti, eyni zamanda insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təminatına, bəşəriyyətin xilasına yönələn mütərəqqi ideallarn cəmiyyətdə möhkəm əsaslarla intişar tapmasına, fərqli dünyagörüşlərinin dialoquna, keçmişlə gələcək arasında möhkəm körpü salınmasına, insanlara xeyirxahlıq, insanpərvərlik və nəciblik kimi müqəddəs dəyərlərin təbliğ edilməsinə yönəlmişdir.

Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini Azərbaycan cəmiyyəti haqlı olaraq Mehriban xanımın vətənpərvərliyinin, öz xalqının milli-mədəni və mənəvi dəyərlərinə olan dərin bağlılığının təcəssümü kimi qəbul edir. Lakin birinci xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən tədbirlər və layihələr təkcə Azərbaycanla məhdudlaşmır, eyni zamanda dünyada sülh və sabitliyin təmin edilməsində önəmli rol oynayan sivilizasiyalararası dialoq mühitinin formalaşdırılması, dünya mədəni irsinin qorunması üzrə aktual istiqamətləri də əhatə edir. Hər addımı ilə ölkəmizin inkişafına böyük töhfələr verən fondun fəaliyyəti, eyni zamanda bəşəriyyətin həmrəyliyi üçün sivilizasiyalar və mədəniyyətlərarası dialoqa yönəlib.

Bütövlükdə, xeyirxahlıq və mərhəmət ünvanına çevrilən, hər bir Azərbaycanın qürur yeri, fəxri və vüqarı olan Heydər Əliyev Fondu Mehriban xanımın rəhbərliyi ilə qarşıya qoyduğu məqsədlərin həyata vəsiqə alması işində bundan sonra da yeni-yeni zirvələr fəth edəcək, doğma Azərbaycanımızın adını hər zaman layiqincə ucaldacaq.

### *Ən fədakar silahdaş*

Qeyd etdiyimiz kimi, Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyət sferası çox genişdir. Hələ 2005, 2010 və 2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmiş Mehriban xanımın millət vəkili kimi fəaliyyəti parlament tariximizin şərəfli səhifəsidir. Seçicilərə diqqət və qayğısı, təmsil etdiyi ərazilərin sosial problemlərinin həlli yönündə gördüyü misilsiz işlərlə əsl millət vəkilliyinin nümunəsini yaradan birinci xanım Milli Məclisin müzakirəsinə təqdim etdiyi layihələrlə milli qanunvericiliyimizin təkmilləşməsinə böyük töhfələr verib. Cəmiyyət üçün ciddi təhlükə törətməyən minlərlə insanın onun təşəbbüskarı olduğu amnistiya aktı layihələri əsasında məhbəsdən azadlığa çıxması Birinci vitse-prezidentimizin deputatlıq fəaliyyətinin xoş bir məqamı kimi hər zaman böyük rəğbətlə xatırlanır, xatırlanacaq.



Ulu Öndər Heydər Əliyevin siyasi irsinə sadiqliyin və Azərbaycanda siyasi sferada qadınlara olan etimadın xüsusi göstəricisi kimi Mehriban xanımın Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini təyin olunması isə, bütövlükdə, partiya qarşısında dayanan vəzifələrin uğurla həyata keçirilməsinə, siyasi partiyada humanizm prinsiplərinin daha da güclənməsinə, partiya yaranan gündən bu günə xidmətdə fərqlənmiş fəal üzvlərin, dövlətçi gənclərin layiqincə qiymətləndirilməsinə yol açıb. Yeni Azərbaycan Partiyasının sədri, Prezident cənab İlham Əliyevin ən fədakar silahdaşı olan Mehriban xanım Əliyevanın partiyanın ali rəhbərliyində təmsil olunması YAP-ın gücünü daha da artırıb, cəmiyyətin ictimai-siyasi həyatında qadın fəallığı ənənələrinin inkişafına təkan verib.

Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin ona həvalə etdiyi bütün vəzifələri də uğurla yerinə yetirərək Azərbaycan dövlətinin beynəlxalq imicinin yüksəlməsinə ləyaqətlə xidmət edib. “Eurovision” mahnı müsabiqəsində olduğu kimi, I Avropa Oyunlarında və IV İslam Həmrəyliyi Oyunlarında Mehriban xanımın rəhbərlik etdiyi Təşkilat Komitəsi qısa müddət ərzində ən yüksək təşkilatçılıq nümunəsini ortaya qoyub.

Bütün bunlarla yanaşı, Mehriban xanımın Azərbaycan idmanının inkişafında da böyük xidmətləri var. Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Onun səmərəli fəaliyyəti ölkəmizdə bu idman növünün inkişafına layiqli töhfələr verir. Olimpiya oyunlarında medal qazanmış idmançılara Heydər Əliyev Fondunun fərdi təqaüdçüsü adının verilməsi də idmanın inkişafına diqqət və qayğısının, bu istiqamətdə həyata keçirilən dövlət siyasətinə verilən töhfənin bariz nümunəsidir.

### *Ali dövlətçilik məqamı*

Mehriban xanım Əliyevanın 2017-ci ilin fevral ayında Birinci vitse-prezident təyin olunmasında da buna qədər dövlətimiz və xalqımız naminə gördüyü işlər böyük rol oynadı. Vətənə layiqli xidmət missiyasının müəllifi olan birinci xanım Prezident cənab İlham Əliyev tərəfindən Birinci vitse-prezident vəzifəsinə təyin olundu. Bu, uzun illərdən bəri ölkəmizin, eləcə də dünyanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayan çox hörmətli Mehriban xanıma ümumxalq rəğbətindən, cəmiyyətin sosial sifarişindən irəli gələn qərar idi.

2017-ci il fevralın 21-də keçirilən Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının iclasında Prezident cənab İlham Əliyev demişdi: ***“Bax bu, çoxşaxəli fəaliyyət və eyni zamanda uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox***



***xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Sadaladığım bütün bu amilləri nəzərə alaraq mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir”.***

Mehriban xanımın ölkəmizin Birinci vitse-prezidenti kimi ötən 7 ildən artıq fəaliyyət dövrünün reallıqları Prezident cənab İlham Əliyevin əminliyinin təsdiqi olmaqla yanaşı, kadr siyasətində nə qədər müdrik olduğunu sübut edir. Çünki dövlətimizin inkişafı sahəsindəki Mehriban xanımın missiyası Prezident cənab İlham Əliyevin həyata keçirdiyi dövlətçilik kursunun prinsip və şərtlərinə uyğun olaraq respublikamızın inkişafına, beynəlxalq əlaqələrinin genişlənməsinə və sosial məsələlərə yönəlib.

Bu təyinat həm də islahatlar prosesinə böyük dəstək ola biləcək bacarıqlı təşkilatçı, yüksək səriştəli rəhbər kimi Mehriban xanım Əliyevanın peşəkar imkanlarından dövlət idarəçiliyində də istifadə zərurətinə əsaslanırdı. Ölkə vətəndaşlarının böyük sevinc və rəğbətlə qarşıladıqları bu təyinat respublikamızda aparılan islahatların məntiqi davamı olmaqla ölkədə yeni tarixi reallığın başlanğıcını qoydu. Ümummilli Lider böyük Heydər Əliyev məktəbinin layiqli yetirmələrindən olan Mehriban xanım Birinci-vitse prezident kimi Azərbaycanda dövlət quruculuğu prosesinin modernləşməsinə və davamlı islahatlarla təkmilləşməsinə böyük töhfələr verir. Digər tərəfdən, Mehriban xanımın idarəçilik üslubu dövlət aparatının daha da yenilənməsinə, mükəmməlləşməsinə xidmət edir.

Xüsusilə qeyd etməliyik ki, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunduğu ilk günlərdən artıq məlum idi ki, sosial qayğıya ehtiyacı olan insanlara diqqət onun fəaliyyətində prioritet istiqamət təşkil edəcək. Bu mənada, Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi öz vəzifəsinin icrasına məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasından, Aprel döyüşlərində sağlamlığını itirmiş qəhrəman hərbçilərimizin yüksək texnologiyalara əsaslanan protezlərlə təmin olunmasından başlaması onun əsl vətəndaşlıq missiyasından, xüsusən sosial məsələlərə olan həssas münasibətindən xəbər verdi.

Koronavirus pandemiyasının şiddətli dövründə isə Mehriban xanım Əliyevanın həm Birinci vitse-prezident, həm də Heydər Əliyev Fondunun prezidenti kimi bu problemlə mübarizəyə verdiyi töhfələr bir daha onun həyat fəlsəfəsinin dövlət və xalqa xidmət məramından ibarət olduğunu nümayiş etdirdi. Mehriban xanımın təşəbbüsləri ilə Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən xeyriyyəçilik minlərlə ailəyə, ahıl insanlara böyük maddi və mənəvi dəstək oldu.

Azərbaycan ictimaiyyəti Mehriban xanım Əliyevanın ən yüksək milli dəyərlərin daşıyıcısı olmasına, eyni zamanda Birinci vitse-prezident kimi bu vəzifəni layiqincə həyata keçirməsinə 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövrdə bir daha şahidlik etdi.

Vətən müharibəsinin davam etdiyi günlərdə kənd və şəhərlərimiz azad olunduqca Mehriban xanımın tarixi qələbələrimizlə bağlı həssas münasibətinin şahidi olduq. Birinci vitse-prezident özünün müraciətləri və sosial şəbəkələrdəki paylaşımları ilə Azərbaycan xalqının haqq və ədalət uğrunda mübarizə apardığını dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Hələ müharibənin ilk günlərində Mehriban xanımın rəsmi “Instagram” səhifəsində ordumuzun cəbhədə qazandığı qələbələrlə bağlı paylaşımında deyilirdi: “Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm. Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!” Bu, Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınlarının sevinci və duası idi…

Zəfərimizlə başa çatan vətən müharibəsi Mehriban xanımın öz Vətəninə nə qədər bağlı olduğunu göstərdi, onun yüksək vətənpərvərlik keyfiyyətlərini bir daha təsdiq etdi. Birinci xanım 44 günlük Vətən müharibəsinin davam etdiyi dövrdə və ondan sonrakı illərdə də şəhid analarının yanında oldu, qazilərimizin şəfqət alması üçün əlindən gələni əsirgəmədi. Döyüşlərdə yaralanmış qəhrəman əsgər və zabitlərimizin müalicəsini birbaşa nəzarətinə götürməsini xalqımız dərin rəğbət ilə qarşıladı.

### *Qarabağın bərpasına möhtəşəm töhfələr*

Vətən müharibəsindən sonra dövlətimiz öz inkişaf tarixinin yeni mərhələsinə qədəm qoyub. Bu mərhələdə də Mehriban xanım Prezident cənab İlham Əliyevin inkişaf siyasətinə layiqli töhfələr verir. Bunun ən bariz nümunələrindən biri Heydər Əliyev Fondu tərəfindən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləridir.

Əvvəlcə onu qeyd edək ki, Prezident cənab İlham Əliyevin işğaldan azad olunmuş rayonlarımıza səfərləri zamanı Mehriban xanımın yolboyu etdiyi çəkilişlər ermənilərin vandallığını dünyaya çatdırdı. Prezident cənab İlham Əliyev düşmənin torpaqlarımızda törətdiklər vəhşiliklər barədə bu görüntülər vasitəsilə məlumat verirdi.

Bu səfərlərdə Mehriban xanım Əliyevanın iştirakı onun torpaqlarımızın bərpası istiqamətində nümayiş etdirdiyi fəal vətəndaşlıq mövqeyindən irəli gəlirdi. Heydər Əliyev Fondu hazırda işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasında yaxından iştirak edir, tarixi və dini abidələrin, məscidlərin bərpası ilə bağlı layihələr həyata keçirir. Fondun dünyada tanınan loqosuna indi işğaldan azad edilmiş ərazilərimizdə teztez rast gəlmək mümkündür. Bu nişan fond tərəfindən Qarabağda dirçəliş, bərpa-quruculuq qayəsi ilə aparılan bir çox işlərin müəlliflik tanıtımı kimi diqqət çəkir.

Fondun Qarabağ və Şərqi Zəngəzurda reallaşdırdığı layihələrin əhatə dairəsi olduqca genişdir. Ötən 4 ilə yaxın müddətdə onların bir qismi tam icra olunub. Belə ki, Şuşada dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Yuxarı Gövhər Ağa, Aşağı Gövhər Ağa, Saatlı, Mamayı məscidlərinin, Mehmandarovların malikanə kompleksi ərazisindəki məscidin, Mehmandarovların malikanəsinin, “Şirin su” hamamının, Şuşada Yaradıcılıq Mərkəzinin, Zəngilan məscidinin, Ağdam Cümə məscidinin bərpası məhz Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib.

Prezident cənab İlham Əliyevin ən fədakar silahdaşı olaraq Mehriban xanımın Vətənə xidmətinin daha bir nümunəsi Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləridir. Başqa cür desək, Mehriban xanım həm də bu gün Qarabağ və Şərqi Zəngəzurdakı möhtəşəm quruculuğun baş müəlliflərindən biridir. Heydər Əliyev Fondu isə işğaldan azad edilmiş ərazilərimizin bərpasına hələ çox töhfələr verəcək və bütün bunlar birinci xanımın Vətən sevgisinin təcəssümü kimi Qarabağın və Şərqi Zəngəzurun bərpası tarixinə yazılacaq.

Mehriban xanımın həyatda mükafatları çoxdur. Ən ali mükafatı isə respublikamızda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Prezident cənab İlham Əliyevin Sərəncamı ilə verilən “Heydər Əliyev” ordenidir. Bu, Azərbaycan dövlətinin Mehriban xanım Əliyevanın fəaliyyətinə və xalqımız qarşısındakı xidmətlərinə verdiyi ən yüksək qiymətin göstəricisidir.

### *Naxçıvan nümunəvi uğurlara imza atacaq*

Mehriban xanım Əliyevanın dövlətə və xalqa xidmət məramının mükəmməl nümunəsini ölkəmizin qədim tarixə malik dilbər guşəsi kimi Naxçıvan Muxtar Respublikasının timsalında da görmək mümkündür. Onun müxtəlif vaxtlarda Prezident cənab İlham Əliyevlə birlikdə Naxçıvana səfərləri muxtar respublikada yüksək ehtiramla xatırlanır. Bu səfərlər zamanı Mehriban xanım Əliyeva dövlətimizin başçısı ilə birlikdə çoxsaylı obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etmiş, “Əshabi-kəhf” ziyarətgahında olmuşdur. Birinci xanımın 2008-ci ildə Türkiyənin ozamankı Baş naziri vəzifəsində çalışan Rəcəb Tayyib Ərdoğanın həyat yoldaşı Əminə xanım Ərdoğanla birlikdə Naxçıvan Dövlət Universitetində olması, 2009-cu ildə Prezident cənab İlham Əliyevlə birlikdə Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyində iştirakı muxtar respublikanın tarixində yaddaqalan əlamətdar hadisələrə çevrilmişdir.

2010-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılaraq istifadəyə verilən Məhdud Fiziki İmkanlı Şəxslər üçün Naxçıvan Regional İnformasiya Mərkəzi Mehriban xanım Əliyevanın muxtar respublikaya böyük hədiyyəsidir. Mərkəzin imkanlarından Naxçıvan şəhəri



daxil olmaqla muxtar respublikanın bütün rayonlarında yaşayan məhdud fiziki imkanlı şəxslər istifadə edə bilirlər.

Naxçıvan ictimaiyyəti Mehriban xanımın bu diyara olan yüksək diqqət və qayğısını Vətən müharibəsi və sonrakı illərdə də yaxından hiss etdi. Belə ki, 44 günlük Vətən müharibəsində Naxçıvandan olan şəhid ailələrinə və qazilərə birinci xanımın göstərdiyi yüksək diqqət və qayğını, Heydər Əliyev Fondunun hər bir şəhid və qazi ailəsinə yaxından köməkliyini qədirbilən naxçıvanlılar heç vaxt unutmayacaqlar.

Hazırda Naxçıvan öz inkişafının yeri dövrünə qədəm qoyub. Son illərdə həyata keçirilən ciddi islahatlar muxtar respublikanın hərtərəfli inkişafına dinamizm gətirib, cəmiyyət həyatının bütün sahələrində canlanma yaradıb. Sözsüz ki, uzun illərdir, blokadadan əziyyət çəkən Naxçıvan öz inkişafının yeni mərhələsində də müzəffər liderimiz, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın ayrıca diqqəti və qayğısı ilə nümunəvi uğurlara imza atacaq.

İstər Birinci vitse-prezident, istər Heydər Əliyev Fondunun prezidenti və digər sahələrdəki fəaliyyəti göstərir ki, Mehriban xanım Əliyeva dövlətə və dövlətçiliyə son dərəcə bağlı və sadiq insandır. Dövlətçilik idealları onun üçün müqəddəs dəyərlərdir. Təsadüfi deyil ki, Mehriban xanım Yeni Azərbaycan Partiyası, xüsusilə milli dövlətçilik yolunda xidmətləri olan insanların, gənclərin əməyini hər zaman qiymətləndirir, onları, sözün əsl mənasında, qoruyur, fəaliyyətlərinə dəstək verir, yüksək vəzifələrə irəli çəkir. Biz bugünkü həyatımızda bunun əyani şahidləriyik. Xalqımızın Mehriban xanıma olan yüksək ehtiramının səbəblərindən biri də budur.

Humanizmi, insanların problemlərinə həssas münasibəti, nəcibliyi və qayğıkeşliyi ilə Birinci vitse-prezidentimiz həm də bir əsl vətəndaş nümunəsi ortaya qoyur. Məhz bunlar Mehriban xanımı cəmiyyətin nümunəvi vətəndaş idealına çevirib. Təlqin etdiyi bu mənəvi dəyərlər, eyni zamanda dünyada sülhə və mədəni dəyərlərin qorunmasına, sivilizasiyalararası dialoqa verdiyi töhfələr Mehriban xanıma beynəlxalq aləmdə də böyük nüfuz qazandırıb. Odur ki, biz birinci xanımın dünyanın sülh və insanlıq adına ən böyük beynəlxalq mükafatlarının da laureatı olacağına ürəkdən inanırıq.

Xalqın dərin etimad və ehtiramını qazanan Mehriban xanım Əliyeva Prezident cənab İlham Əliyevin fədakar silahdaşı kimi bundan sonra da Azərbaycanın inkişafına layiqli töhfələr verəcək. Bu şərəfli yolda Mehriban xanım Əliyevaya böyük uğurlar arzu edirik!

**Bəxtiyar ƏSGƏROV**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***

# Sirli tarix yatan ünvanlarımız



Bu dəfə fotomüxbirimiz Zülfüqar Qurbanlı ilə yolumuz Culfa rayonunun Camaldın kəndinədir. Naxçıvanlıların təbirincə desək, havanın istisindən ağacların yarpaqları belə tərpənmir. Lakin "Yolçu yolda gərək", – deyərək gedəcəyimiz ünvana tələsirik. Bir qədər getdikdən sonra kənd mərkəzində bizi həmin yaşayış məntəqəsinin sakinləri olan Cavanşir Qasımov, Ayaz Novruzov qarşılayır, hal-əhval tuturlar. İlk görüşdüyümüz bu insanların səmimiyyəti bizə gözəl ovqat bəxş edir. Gəlişimizin məqsədini onlara bildiririk. Bir qədər ayaqüstü söhbətdən sonra üz tuturuq gedəcəyimiz ünvana – illərin dini inanc yerlərindən olan Ərməmməd pirinə.

Haşiyə çıxaraq deyim ki, Əlincəçay mahalında yerləşən bu qədim kənddə tarixi tikililərin izlərinə bu gün də rast gəlmək olur. Ərməmməd mağarasına gedərkən yolboyu gördüklərimiz marağımıza səbəb olur. Dayanaraq diqqətimizi çəkən tikili qalıqlarına baxırıq. Bizə bələdçilik edən yoldaşlarımız qarşımıza çıxan "Kərpiclik" deyilən ərazidə dayanmağımızı məsləhət bilirlər. Mağaraya gedən yolun sol tərəfində olan bu ərazidə balaca bişmiş kərpic qırıntıları gözə dəyir. Biranlığa yadıma uşaqlıq illərim düşür. Yaxşı xatırlayıram ki, atam maşınını burada saxlayar, yerə enərdik. İndi gördüyüm kərpiclərə oxşar kərpicləri üst-üstə qoyurdum. Böyüdükcə anlamağa başladım ki, camaldınlılar dağılmış kəndin sakinlərinin ruhuna hörmət mənasında burada ayaq saxlayırlar.

Həmin yolun qarşı tərəfində də eynilə balaca bişmiş kərpic qırıntılarını görürük. Camaldın kəndindən 5-7 kilometr şimal-şərqdə yerləşən həmin bu yerdə aparılmış tədqiqatlar və əldə edilmiş maddi mədəniyyət nümunələrindən müəyyən edilib ki, burada XI-XVIII əsrlərə aid "Əl-Kuti" adlı yaşayış məskəni olmuşdur. 2014-cü ildə burada AMEA Naxçıvan Bölməsi tərəfindən ciddi kəşfiyyat işləri aparılıb. AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev və tarixçi-alim Abbas Seyidovun müəllifi olduqları "Qədim Culfa" kitabında bu yurd yerləri haqqında elmi faktlara söykənən məlumatlar özünə yer alıb.

Orta əsrlər dövrünə aid olan bu ərazidə gəzdikcə o dövrün sənətkarlıq sahələrindən olan dulusçuluq nümunələri qırıntılarına rast gəldik. Şirəli qab qırıntıları üzərində rəngarəng naxışlar çəkilib. Həqiqətən də, bizim üçün çox maraqlı olan bu yerlər keçmişin izləri ilə addımlamağımıza cığır açır.

Qeyd edək ki, yolboyu getdiyimiz ərazilərdə, tədqiqatçıların da dediyinə görə, daş karxanaları olub. Bu gün də onların qalıqlarının izlərini qaya parçaları üzərində görmək mümkündür. Qırmızı sal qayalar üzərində çapılmış daşlar tarixin izlərinin bir parçasını özündə daşıyır. Bir vaxtlar kənddə inşa edilən su dəyirmanı üçün hazırlanan dəyirmandaşı və onlardan bir neçəsi yol kənarındakı qayalar ətrafında "məskunlaşıblar". Bir qədər aralıda isə kənd sakinlərinin bizə göstərdiyi maraqlı böyük qaya parçalarını görürük. Getdiyimiz yolun kənarındakı nekropolun yanında yerləşən qəbiristanlıqda vaxtilə çoxlu daş qoç və qoyun fiqurları, sənduqə və başdaşıtipli qəbirüstü xatirə abidələri olub. Ayaz müəllimin dediyinə görə, bir vaxtlar bu ərazidə olan qəbirüstü abidələr rast gəldiyimiz bu qaya parçalarından yonulub. Hətta böyük bir daş parçası qoç heykəli üçün nəzərdə tutulub. Amma yarımçıq qalmış bir hissəni görmək mümkündür. Bu qaya parçası haqqında Vəli Baxşəliyevin də fikirlərini öyrəndik. Onun fikirləri kənd sakinlərinin dediyini təsdiq etdi.

Bunlar Ərməmməd pirinə ziyarətimiz zamanı görüb, şahidi olduqlarımız idi. Yerli əhali arasında ibadətgaha çevrilmiş bu pir hündür qayalıqlar arasında yerləşir. Yaşıllıqlarla əhatələnən pir bir binadan ibarətdir. Giriş hissəsi üzü şimala olan binanın qapısı ağzında bir qəbir vardır. Piri ziyarət edən insanlar ilk olaraq buranı, sonra isə binanın içərisindəki qəbri ziyarət edirlər. Bu müqəddəs ünvanda bizim marağımıza səbəb olan məqam pirin tam mərkəzində gördüyümüz yaşıllıq oldu. Ətrafa baxanda qayaların arasından bulaq axdığını gördük. Deməli, yaşıllığı yaradan həmin bulaqdır.

Onu da deyim ki, qəbirlərin heç birinin üzərində yazılı abidə-epiqrafik sənədə rast gəlinmir. Bu halda isə qəbirlərin mənsubiyyəti, dövrləri və pirin mahiyyəti haqqında tutarlı elmi fikir söyləmək çətindir.

Ancaq yerli kənd sakinləri arasında illərdir, Ərməmməd piri haqqında müəyyən rəvayətlər dolaşır. Onların dediklərini AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli "Əlincəçay mahalının epiqrafik abidələri" adlı çox dəyərli kitabında qeyd edib: "Yaşlı adamların söylədiyinə görə, ziyarətgah el arasında "Alməmməd piri" və ya "Ərməmməd piri" adlanır. Onların dediyinə görə, Zəngəzurda yaşayan Alməmməd (bəzi fikirlərə görə Səfəralı) adlı adama yuxuda deyirlər ki, Əlincəçay sahilində filan yerə get, orada müqəddəs bir qəbir var, onu tap və ona qulluq et. Həmin adam gəlib çox axtarsa da, qəbri tapa bilmir. İkinci dəfə yenə həmin yuxunu görür. Ona kəndin adını da deyirlər. Alməmməd (Səfəralı) kişi gəlib həmin qəbri tapır, onun ətrafını səliqəyə salır, üzərində bina tikir və orada yaşayaraq qəbirə qulluq etməyə başlayır. Bundan sonra həmin qəbir ziyarətgaha çevrilir, oraya Camaldın kəndindən və ətraf kənd məskənlərindən zəvvarlar gəlməyə başlayır".





Adıçəkilən kitabında tarixçi-alim sonra yazır: "Ancaq ziyarətgahın əsasını təşkil edən içərisindəki qəbir haqqında heç bir məlumat əldə edilməmişdir. Camaldın kənd əhalisindən bəzi adamlar isə onu sadəcə olaraq imamların, imam övladları ilə, seyyidlərlə və sair əlaqələndirirlər. Mənsubiyyəti məlum olmasa da, pir Naxçıvan ərazisində kifayət qədər şöhrətə malikdir. Orada olarkən biz pirə müxtəlif kəndlərdən ziyarətə gələnlərin şahidi olduq".

*Hörmətli oxucularımız!*

Müntəzəm olaraq muxtar respublikamızın ayrı-ayrı yaşayış məntəqələrinə xidməti ezamiyyətə gedir, hər gedişimizdə zəngin tarixə malik diyarımızda çoxlarına bəlli olmayan abidələri, qədim adət-ənənələri, onların ehtiramla yaşadıldığını görürük. Culfa rayonunun Camaldın kəndinə gedişimiz də bizdə çox maraqlı təəssüratlar yaratdı. Gördüklərimizi sizə də arzulamaqla...

**✍ Aidə İBRAHİMOVA**
**Foto: Zülfüqar QURBANLI**



# Daşlara həyat verən qazi Elvin Nabatəliyevin bir günü



Tarixin qızıl səhifələrinə yazılan Vətən savaşı hər ürəkdə bir nisgil, hər evdə bir həsrət izi salıb getdi. Əbədi qəhrəmanlar öz qanları ilə Vətənimizi bütövləşdirib adlarını tariximizə qızıl hərflərlə yazdılar. Onlar hər bir azərbaycanlının qəlbində özünə əbədi heykəl ucaltdılar. Döyüşə girən hər bir hərbçi canını sipər edib qələbə qazandı. Şəhid yoldaşlarını çiynində daşıyan Azərbaycan əsgəri dünyaya meydan oxudu. Kimisi bu yolda şəhid olub, şanlı Zəfər bayrağına sarılıb, kimisi sağlamlığını itirib gəldi evinə. O da onlardan biridir. Yarı canını Vətənə qurban verənlərdən.

Elvin Nabatəliyev döyüşlərə xüsusi təyinatlı kimi qatılıb. Qubadlı, Cəbrayıl, Zəngilan istiqamətində gedən döyüşlər zamanı sağlamlığını itirib. Heykəltaraşlığa və rəssamlığa olan marağını qəlbində saxlayıb hərbçi kimi şərəfli bir peşəyə yiyələnib Vətənin müdafiəsinə yollanan müsahibim 23 il dövlətə şərəflə xidmət edib. Vətən savaşındakı şanlı Zəfərdən sonra igid oğulların abidələrini yaratmağa başlayıb. Onunla Babək şəhərində yerləşən emalatxanasında həmsöhbət olanda bildirdi ki, əslən naxçıvanlı olsa da, Bakıda yaşayır. Orada yaşadığı müddətdə 40-dan çox şəhidin abidəsini hazırlayıb. Naxçıvanlı şəhid ailələrinin istəyini yerinə yetirmək üçün buraya gəlib. Özünə emalatxana yaradıb qohumlarının həyətində. Şəhid ailələrinin istəyinə uyğun olaraq abidələr yaradır.

Hər bir şəhidin heykəlini hazırlayanda yenidən həmin o şərəfli günlərə qayıdır, gözünün önünə Cəbrayıla, Qubadlıya bayraq sancdıqları, Xudafərin körpüsünə ayaq basdıqları günlər gəlir. Hər gün bir qarış torpaq üçün canından keçən şəhidləri yada salır. Bu daş abidələri onların yazdığı şanlı tarixin tozlu səhifələrinə yadigar qalsın deyə yaradır. Bunu həm də özünə borc bildiyini deyir heykəltaraş. İslamın qəhrəmanlığını, Ülvinin rəşadətini, Vüqarın igidliyini daşlara həkk edir. Bəzən sanki onları dinləyir, ürəklərində qalan arzularını da həkk edir daş abidələrə. Şəhid anaları bir baxışına həsrət qaldıqları balalarının xatirələrinin bu daş abidələrdə əbədiləşdiyini görəndə bir az da olsa, ürəkləri sakitləşir. Təsəlli olur onlara.





Müsahibim deyir ki, o, şəhid büstləri, heykəlləri ilə bərabər, vahid bütöv Azərbaycanın xəritəsini, Vətən müharibəsinin simvolu olan "dəmir yumruğ"u da hazırlayır: "Bütövləşməsində payım olan Azərbaycan xəritəsini, bir parçası olduğum "dəmir yumruğ"u hazırlayanda qürur hissi keçirirəm. Fəxr edirəm ki, biz bir olub Vətəni düşməndən xilas etdik".

Elvin Nabatəliyev onu da xüsusilə vurğulayır ki, "Naxçıvan Qaziləri" İctimai Birliyinin üzvləri ona bu işdə kömək edirlər. "Biz birlikdə güclüyük!" şüarı haqq savaşımızda da, ondan sonrakı dövrdə də bizi birləşdirir.

"Hər bir qazi öz döyüş yoldaşının xatirəsini bir cür yaşadır. Mən də əlimdən gələni edir, onları daş abidələrdə əbədiləşdirirəm. Qoy övladlarımız tarixi onların qəhrəmanlıqla yazdığı səhifələrdən oxusun".

Heykəltaraşla söhbətimizi bitirdikdən sonra orada ailəsinə təhvil verilməsinə az qalan heykəllərə baxıram.

**Emin Sadiqov.** Anası Gülşadın gözünün ağı-qarası tək övladı. Bəy otağı bağlı qalan, bəy köynəyini kəfənlə əvəz edən Emin. Vətəni anasından əziz bilən oğul.

**Ülvi.** Kəngərli elinin Xok kəndinin yeddi şəhidindən biri. Arzularını torpağa qurban verən igid.

**Vüqar.** Qədim Qarabağların igid övladı. Kəngərli süvarilərinin davamçısı.

**Orxan.** Övladının üzünü görmədən şəhidlik şərbəti içən oğul. Səmayə ananın bu dünyada yanan tək çırağı.

*Siz bu xalqın şərəf tarixini öz qanınızla yazıb övladlarımıza elə bir xəzinə hədiyyə etdiniz ki, bu xalq sizi heç bir zaman unutmayacaq. Çünki siz bu xalqın əbədi qəhrəmanlarısınız.*

**✍ Ramiyə ƏKBƏROVA**




# 100 ilin qəhrəmanları

*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Ordubad rayonunun Tivi kəndindən olan şəhidimiz Rufiz Budaqovun anası Bəyim Budaqovanın, Şərur rayonunun Danyeri kəndindən olan şəhidimiz Əli Babayevin anası Lala Babayevanın və Ordubad rayonunun Çənnəb kəndindən olan şəhidimiz Şamil Bababəyin atası Nazim Bababəyin övladları haqqında xatirələri yer alıb.*

## Budaqov Rufiz Şirzad oğlu

*(12.07.1977-29.09.2020)*

## Xatirələri məni ovundurur





Övlad itirmək ağırdır. Mən də bu taleyi yaşayıram. Qismət belə imiş. Saatlarla onun haqqında danışa bilərəm.

Uşaqlığı gözlərim önündən getmir. Tərbiyəli uşaq idi. Məktəbdə də hər zaman tərbiyəli olduğunu deyirdilər. Həyət-baca işlərində bizə yaxından kömək edərdi. Qohumcanlı idi. Qohumlarımız da xətrini çox istəyirdilər. Çoxlu dostları var idi. 18 yaşını tamam edən kimi hərbi xidmətə yollandı. Qısa müddətdə özünü nümunəvi əsgər kimi göstərə bilmişdi. Tez-tez əlaqə saxlayırdı. Xidmətdə olarkən xəbər verdi ki, ana, mən burada qalacağam. Elə məktəbdə oxuyanda hərbiyə marağını hiss etmişdik. Hərbidə tankçılığı oxudu. 4 il evə gəlməmişdi. Vəziyyət elə idi. Ancaq telefonla danışırdıq. Heç vaxt narazı danışmadı. Uşaqlıqdan kimisə narahat etmək istəməzdi. Xasiyyəti elə idi. Deyirdi ki, ana, darıxma. Mən heç kimin övladından artıq deyiləm. Belə böyümüşdü oğlum. 2016-cı ildə Aprel döyüşlərində də iştirak etmişdi. Ona "Alov" ləqəbini vermişdilər. Bundan mən də bir ana kimi sevinirdim. Aprel döyüşlərində yaralanmışdı. Yaranın da düyün kimi izi qalmışdı. Ailəli idi. 3 övladı var. Sonuncu dəfə ayın 26-sı danışdım. Zəng etdim. Dağda idi. Dedi ki, ana, hər şey yaxşıdır. Darıxma, tezliklə görüşərik. Ancaq görüşə bilmədik sağlığında. Bu gün özü həyatda olmasa da, xatirələri məni ovundurur. Hərdən düşünürəm ki, indi qapı açıla, içəri girə. Bağrıma basam. Ancaq bilirəm ki, belə şey ola bilməz. Ruhu şad olsun deyirəm ki, mənə şəhid anası adını qazandırdı.



## Babayev Əli Həsən oğlu

*(14.11.1997-27.09.2020)*

## Vətən sevdalısı





Əli mənim gözümün işığı idi. Sonbeşiyimiz olduğu üçün hamımız onu çox istəyirdik. Ondan danışanda həmişə doluram, ağlayıram. Bilirdim ki, məni digər uşaqlarımdan çox istəyir. Boynumu qucaqlamaqdan doymazdı. Deyirdi ki, ana, mən səni çox istəyirəm, de görüm hansımızla qalacaqsan? Səninlə qalacağam deyəndə durub boynuma sarılar, üzümdən öpərdi. Deyərdi ki, səni mən saxlayacağam. Bacımın oğlu hərbçi idi, bir gün gəldi ki, mən də o məktəbi oxuyacağam. Zabit olacağam. O paltarı geyinəcəyəm. Sənədlərini verib getdi, yüksək bal topladı. Sevinərək gəldi ki, ana, qəbul olmuşam Türkiyəyə. Amma Əlini aparmadılar. Buna üzülərək dedi ki, mən məktəbə getməyəcəyəm. Sözümüzdən çıxan uşaq olmadığı üçün atasının, qardaşlarının təkidi ilə gedib oxudu. Bir qardaşı da hərbidə işlədiyi üçün həmişə ona ürək-dirək verərdi. Məktəbi bitirəndən sonra sərhəd qoşunlarına daxil oldu. Türkiyədən gəlib bir neçə əsgər seçiblər, Əli də onlar arasında olub. İmtahan tutublar. Dörd nəfər fərqlənib. Onların içindən isə seçilən Əli olmuşdu.



Əli düşmənin xalqımızın başına gətirdiyi müsibətlərə görə qisas hissi ilə yaşayırdı. Getdiyi hər yerdə onu çox istəyirdilər. Hətta o, bir dəfə poliqonda olarkən hansısa general ona bronjilet vermişdi. Sevinərək evə gətirmişdi. Demişdi ki, geyinib yanıma gələrsən. Əli sevincindən uçurdu az qala. Deyirdi, ana, bunu qəşəng saxla. İndi hər gün gözümün önündə, baxdıqca o anları xatırlayıram. Həmişə oxumaq, bilik qazanmaq istəyirdi. Hara getmək istəyirdi, deyirdim get. Deyirdi, sən necə mərd anasan. Axırıncı danışığımız sentyabrın 25-i oldu. Bacıları ilə hər gün əlaqə saxlayırdı. Hal-əhval tuturdu.

Qismət belə imiş. Bu gün onun paltarları, şəkilləri ilə təskinlik tapıram. Xatirələri ilə yaşayıram. Bir ana kimi bütün arzularım gözümdə qaldı. Bəzən düşünürəm ki, tək mən deyiləm oğul itirən. Ruhları şad olsun ki, 30 il tapdaq altında qalan torpaqlarımızı aldılar. İndi o torpaqlara qayıdan insanları görəndə sevinirəm. Sevinirəm ki, onların öz doğma yurd yerlərinə qayıtmasında oğlumun da payı var.

## Bababəy Şamil Nazim oğlu

*(04.01.1994-07.10.2020)*

## İgid şəhidlərimiz qəlbimizdə yaşayır





Şamil balaca vaxtından sakit təbiətli bir uşaq idi. Məktəbdə əlaçı olduğundan müəllimləri, sinif yoldaşları onu çox sevirdilər. Birinci sinfi Çənnəb kənd tam orta məktəbində oxumuşdu. Sonra mənim işimlə bağlı Ordubada köçməli olduq. Burada internat məktəbində oxumağa başladı. O, müddətdə keçirilən bütün idman yarışlarında iştirak edirdi. Həmişə də mükafatlandırılırdı. Dərslərini də yaxşı oxuyurdu. Test-sınaq imtahanlarında da fəallıq göstərir, yüksək nəticələr qazanırdı. Yoldaşlarına qarşı çox mehriban idi. Daha sonra isə Heydər Əliyev adına Hərbi Liseydə oxudu. Liseyə onu görməyə gedəndə müəllimləri razılıq edirdilər. Qəlbim dağa dönürdü. Oranı da bitirdikdən sonra Bakıya qəbul oldu. Bir gün mənə zəng etdi ki, ata, mən arzuma çatdım. Tankçı olacağam. Balaca vaxtından "Dədə Qorqud", "Uzaq sahillərdə", "Babək" və bu kimi filmlərə baxar, mən də onlar kimi olacağam deyirdi. Onda Həzi Aslanova sevgi yaranmışdı. Deyirdi ki, ata, mən də istəyirəm Həzi Aslanov kimi tankçı olum. Onun yolunu davam etdirim. Mən də Qarabağı erməni işğalçılarından azad edənlərdən olum. Şamil bu ruhda yetişmişdi. Vətəninə, torpağına çox bağlı idi. Lələtəpə uğrunda gedən döyüşlərdə iştirak etmişdi. Şamildən başqa üç oğlum da var. Onlardan biri də tankçıdır. Qardaşının yolunu davam etdirir. Şamillə axırıncı dəfə 28 sentyabrda danışdıq. Dedi ki, ata, hər halda biz də müharibəyə gedəcəyik. İnşallah, sağ-salamat çıxarıq. Ağdərə istiqamətində döyüşlər zamanı şəhid oldu. Neytral ərazidə qaldı nəşi. Oktyabrın, dəqiq xatırlamıram, ya 24-ü, ya da 25-i Daxili İşlər Nazirliyindən çağırdılar. Ayın 28-i Bakı şəhərində İkinci Fəxri Xiyabanda dəfn olundu. Doğum və şəhadətə ucaldığı günlər gedib məzarını ziyarət edirik. Övlad itkisi ağırdır. Ancaq nə etmək olar? Şəhid övladlarımızın qisməti belə imiş. Şirin canlarından Vətən yolunda keçdilər. Ruhları şad olsun. Torpaqlarımızı özümüzə qaytardılar. Torpaq namusumuzdur. Bugünkü gənclərə örnək olan igid şəhidlərimiz hər birimizin qəlbində yaşayır. Onlar bu sevgini özləri qazanıblar.





# Uzaq keçmişin gələcək üçün ən qiymətli mirası – milli dəyərlərimiz

Uzaq keçmişdən bu günümüzə gəlib çatan milli dəyərlərimizin əks olunduğu bir güzgü qarşısındayam. Qədim insanların yaşayışı, məşğuliyyəti, inancları, dünyagörüşü, geyimi, adət-ənənələri, davranış qaydaları məhz bu güzgüdə öz şəklini alıb. Bu həmin dəyərlərdir ki, tarixi Azıx mağarasına kimi uzanır, Qobustan qayaüstü rəsmlərində, Gəmiqaya petroqliflərində aydınlıq tapır. Qədim əkinçilik alətlərində mədəniyyətin, qədın heykəllərində anaya, qadına hörmətin, tayfa ittifaqlarında dövlətçilik ənənələrimizin izləridir ki, bizi milli dəyərlərimizə aparır. Bu dəyərlərin kökü nənə-babalarımızın söylədikləri əmək nəğmələrində, laylalarda, bayatılarda, atalar sözlərində, məsəllərdədir. Düzəltdikləri saxsı qabda, toxuduqları min ilməli, min naxışlı xalıda, çəkdikləri fərqli rəsmlərdə, zəngin təbiətimizin məhsulu mətbəx nümunələrində, tikib-qurduqları abidələrdə, yaratdıqları müxtəlif sənətkarlıq sahələrində, müqəddəs dinimiz İslamın buyurduğu ənənələrə bağlılıqdadır. Məhz əsrlər boyu çətinliklərlə mübarizə aparmasına, 70 il sovet rejimi altında yaşamasına baxmayaraq, əzmi, qüdrəti, cəsarəti bir də milli-mənəvi dəyərlərinə bağlılığı olub xalqımızı müstəqillik yoluna çıxaran...

"Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanlarında öyrəndik məğlubiyyət ölümdən pisdir, qadının namusu toxunulmazdır, qonaq Allahındır, söz verdinsə əməl elə və digər əsl Oğuz əcdadlarına yaraşan xüsusiyyətləri. Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai yaradıcılığında həqiqi sevgini, dosta sədaqəti, Vətənə məhəbbəti öyrəndik, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Araz qələmində xalqa, dilə, doğma yurda sevginin şahidi olduq. Baba Nemətullah Naxçıvani təfsirlərində, müqəddəs kitabımız "Qurani-Kərim"də dinə düzgün yanaşmağı, inanclı olmağı, Əcəmi Naxçıvani yaradıcılığında mədəni dəyərləri mənimsədik. Cavanşir, Koroğlu, Babək, Mübariz kimi qəhrəman oğullarımızın, Nigar, Həcər, Tomris, Sara xatın kimi qadınlarımızın timsalında igidliyi, yenilməzliyi, sədaqəti, aman diləyənə qılınc qaldırmamağı, müstəqilliyin, azadlığın ölümdən də qiymətli olduğunu öyrəndik.

Bu güzgü bizi həm də milli dəyərlərimizə gedən yola yönəldir. O yol ki bu böyük şəxsiyyətin bütün həyatının, fəaliyyətinin, dövlətçilik siyasətinin əsas konsepsiyası olub. Tarixi, mədəni, dini abidələrin bərpası və ya yenidən qurulması, ölkəmizdə muzeylər şəbəkəsinin inkişafı, Novruz, Qurban, Ramazan bayramlarının keçirilməsinə hər cür şəraitin yaradılması, ədəbiyyatşünasların, böyük sərkərdələrin fəaliyyətinin öyrənilməsi, tarixi filmlərin çəkilməsi, qədim dastanlarımızın, şair və yazıçılarımızın yubileylərinin qeyd edilməsi, milli atributlarımızın – bayraq, gerb, himn, milli varlığımız dilimizin Konstitusiyamızda milli dəyər nümunəsi kimi təsdiqini tapması böyük şəxsiyyətin adı ilə bağlıdır.

Bu güzgü həm də Ulu Öndər irsinin layiqli davamçısı Prezident cənab İlham Əliyev və birinci xanımın milli dəyərlərimizin yaşadılması istiqamətində gördüyü işlərdən danışır. "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer almasından, milli-mənəvi dəyərlərimizin qorunub, mühafizə olunması yolunda atılmış diqqətəlayiq addımlardan söhbət açır...

Ümummilli Liderimizin ideyalarına sadiq ulu diyarımız Naxçıvandan danışır bu güzgü. 5-7 minillik şəhər mədəniyyəti ilə bəşər sivilizasiyasının əsas məkanı, Naxçıvan şahlığı, Azərbaycan Atabəylər dövləti, Naxçıvan xanlığının inzibati-mədəni mərkəzi olmasından, müdafiə qabiliyyəti ilə seçilən Araz-Türk Respublikasından, tarixi-memarlıq abidələri, toxuculuq, ipəkçilik, zərgərlik, misgərlik, dulusçuluq kimi sənətkarlıq sahələri ilə Avropa tarixçi və səyyahlarının bu şəhərə heyranlığından, gənclərin, İslam mədəniyyətinin paytaxtı olan diyardan söhbət açır. Hər addımı bir tarix danışan diyardan... Möminə xatın türbəsi qadına – anaya hörmətə, Əlincə qalası 14 illik şanlı mübarizəyə, Cəmşid Naxçıvanski Muzeyi Kəngərlilərin, Naxçıvanskilərin tarixinə şahidlik edir bu şəhərdə.

Nuh Peyğəmbərin adını daşıyan türbə bu diyarın insanlığın yaradılış məkanı olmasına, müqəddəs Əshabi-kəhf dini dəyərlərə inancın böyüklüyünə, Naxçıvanqala adət-ənənələrimizin yaşadıldığı festivallara şahidlik edir. Möminə xatın, Gülüstan, Qarabağlar, Yusif Küseyiroğlu türbələrinə, İsmayılxan, Şahtaxtı hamamlarına, İmamzadə Kompleksinə və onlarla belə tarixi abidələrə, məscidlərə, binalara bir baxın. Bu abidələr tarixə, mədəniyyətə, milli dəyərlərimizə sahiblik hissinə şahidlik edir. Dədə Qorqud, Babək, Koroğlu heykəlləri qəhrəmanlıq, azadlıq tariximizə, Milli Dəyərlər Muzeyi, Naxçıvan Dövlət Rəsm Qalereyası bu qədim diyarın müxtəlif kompozisiyaya malik, orijinal naxışlı xalçaçılıq ənənələrinə, özünəməxsus qadın, kişi, uşaq geyimlərinə, tariximiz və zəngin təbiətimizin rəng qatdığı mətbəx nümunələrinə, Bəhruz Kəngərli, İbrahim Səfi yaradıcılığına, müasir rəssamlarımızın əsərlərinə şahidlik edir. Qədim rəqs nümunələrimiz, yallılarımız, xüsusilə Şərurun el yallıları, ozan-aşıq yaradıcılığı etnoqrafiyamızın, folklorumuzun zənginliyini göstərir.

Təmiz və səliqəli küçələri ilə turistləri özünə cəlb edən şəhərimizin yaşıllıq simvolu bağları, park və xiyabanları, müasir universitetləri, kitabxanaları, teatrları göz oxşayır. Milli dəyərlərimizə sahib çıxmaq istəyənlərin planlarını yalana çıxaran elmli, ziyalı şəxsiyyətləri qürur hissi yaşadır. Tarixi-memarlıq abidələrimizin tədqiqi, bərpası ilə, keçirilən beynəlxalq tədbirlərlə, yazılan kitablarla, məqalələrlə, çəkilən filmlərlə, ənənəvi olaraq təşkil edilən festivallarla, müasir media vasitələri ilə milli-mədəni irsimiz yaşadılır, təbliğ edilir turizmin ideal məkanı Naxçıvanımızda. Hələ də blokada şəraitində yaşamasına baxmayaraq, günügündən gözəlləşir, inkişaf edir diyarımız – Ulu Öndər Heydər Əliyev irsinə sadiq, milli-mənəvi dəyərlərin qoruyucusu kimi.

✍ Güntac ŞAHMƏMMƏDLİ

# Tələbə Teatr Studiyasının uğurları hamımızı sevindirir

Son illərdə muxtar respublikada teatr və incəsənət sahələri üzrə ixtisaslı kadrların hazırlanması işinə xüsusi diqqət yetirilir. Bunun ifadəsi kimi, ilk olaraq 2011-ci ildən Naxçıvan Dövlət Universitetində Teatr və mədəniyyətşünaslıq kafedrası və Aktyor sənəti ixtisasının fəaliyyətə başlamasını qeyd etmək yerinə düşər. Bu ixtisas aktyor kadrlara olan tələbatın ödənilməsi, bu sahə üzrə yaranan problemlərin həll edilməsində mühüm əhəmiyyət kəsb edir. Ali təhsil ocağında Tələbə Teatr Studiyasının fəaliyyət göstərməsi isə nəzəriyyə ilə təcrübənin vəhdətinə imkan verib.

Tələbə Teatr Studiyasının qazandığı uğurlarda böyük əməyi keçən universitetin adıçəkilən kafedrasının müdiri, dosent, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Gülxarə Əhmədova ilə həmsöhbət olduq, keçilən yola nəzər saldıq, bu sahədə görülən işlərdən və əldə edilən nailiyyətlərdən danışdıq. Gülxarə müəllim deyir ki, 20 ildən artıqdır, fəaliyyət göstərən Tələbə Teatr Studiyası artıq universitetin mədəni həyatının tərkib hissəsi kimi muxtar respublikanın mənəvi-estetik ehtiyaclarının ödənilməsi işinə xidmət edən mədəniyyət ocağına çevrilib. Aktyorluq ixtisası ilə yanaşı, müxtəlif ixtisaslarda təhsil alan tələbələri də öz ətrafına toplayan bu studiya hazırladığı tamaşalarla nəinki universitetin müəllim və tələbə heyətinin rəğbətini qazanıb, həmçinin



muxtar respublikanın mədəni həyatında, respublikamızdan kənarda da uğurlar əldə edib: – Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası 1998-ci ildən ictimai əsaslarla mənim rəhbərliyim altında fəaliyyət göstərir. 2011-ci ildən Teatr və mədəniyyətşünaslıq kafedrası yaranıb. Kafedranın yaranması da tələbə studiyasının fəaliyyətinə öz müsbət təsirini göstərib. Bu illər ərzində müxtəlif səpkili tamaşalar və tədbirlər hazırlamışıq, qurulan kompozisiyaların hər biri böyük rəğbətlə qarşılanıb. Səhnələşdirdiyimiz tamaşaların ssenarisini də özümüz hazırlamışıq. Burada müxtəlif yazarların dram əsərlərindəki hissələrdən həmin kompozisiyaların qurulmasında istifadə etmişik. Universitetin incəsənət həyatında rəngarəng, müxtəlif repertuarlarla çıxışlarımız olub. Birinci tamaşamız çox uğurlu alınıb. Belə ki, Xalq yazıçısı Kamal Abdullanın 1999-cu ildə "Beyrəyin taleyi" adlı dram əsəri əsasında hazırladığımız tamaşa çox sevildi. Studiya yeni yaranmışdı və müxtəlifixtisaslı tələbələr həmin tamaşada iştirak edirdilər. Sevindirici hal idi ki, yazıçı Kamal Abdullanın özü də o tamaşanın təqdimatına gəlmişdi. Qeyd edim ki, bu tamaşa ilə biz sonra qardaş Türkiyə Respublikasının Bayburd şəhərində "Dədə Qorqud festivalı"nda böyük uğurla çıxış etdik. Eyni zamanda muxtar respublikanın rayonlarında bu əsəri teatrsevərlərə təqdim etmişik.

2000-ci ildə "Atatürk" adlı əsəri tamaşaya hazırlamışdıq. Həmin vaxt Atatürk Araşdırma Mərkəzinin əməkdaşları universiteti ziyarətə gəlmişdi. Hətta tamaşanın geyim dəstləri də onlar tərəfindən hazırlanmışdı. Türkiyənin 7-8 universitetində və hərbi hissələrindəki çıxışlarımız da alqışlarla qarşılandı. Bu tamaşanı gün ərzində 3 dəfə nümayiş etdirməli olurduq. Görkəmli yazıçı, dramaturq Cəlil Məmmədquluzadənin əsərlərinə dəfələrlə müraciət etmişik. Belə ki, 2001-ci ildə "Anamın kitabı", 2004-cü ildə "Ölülər" əsərlərini uğurla səhnələşdirdik, 2006-cı ildə isə "Danabaş kəndinin əhvalatları" ilə tamaşaçı qarşısına çıxdıq. Və bildirim ki, həmin bu tamaşalarla bizim tələbə aktyorlarımızın istedad və bacarıqları bir daha üzə çıx-



dı. Çox maraqlı repertuarlarımızdan biri də 2012-ci ildə Nazim Hikmətin "Qəribə adam" tamaşası idi. 2014-cü ildə Adil Qasımovun "Sarı gəlin", 2015-ci ildə naxçıvanlı dramaturqumuz Həmid Arzulunun "Qaçaq Quşdan" romanı əsasında "Milaxda həyəcan" bölümündən bir tamaşa hazırlamışdıq və bir neçə hərbi hissənin əsgər-zabit heyəti qarşısında nümayiş etdirmişik. 2017-ci ildə dünya ədəbiyyatından "Emiliya Qalotti" və bir çox tamaşalar səhnələşdirmişik. Kafedramızın müəllimləri Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev, Əməkdar artist Tofiq Seyidov və Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Azər Cəfərli Tələbə Teatr Studiyası üçün tamaşalar hazırlayırlar.

"Tamaşaçı sarıdan heç vaxt əziyyət çəkməmişik. Həmişə tamaşaçı alqışı qazanmışıq. Son üç ildə Naxçıvan Muxtar Respublikasında universitetlər arasında keçirilən teatr müsabiqələrində qalib olmuşuq. Muxtar respublikada təşkil edilən mədəni-kütləvi tədbirlərdə bizim kollektiv fəal iştirak edir. Tələbə Teatr Studiyasının yallı-rəqs qrupu da ifaları ilə həmişə fərqlənib. Naxçıvana məxsus olan yallıların bir çoxunu, demək olar ki, "Şərur" Xalq Yallı Ansamblının tövsiyəsi, onların məsləhəti ilə hazırlamışıq. Yallılarımızın yaşamasında, təbliğ olunmasında universitet tələbələrinin böyük rolu olub. Həmçinin Tələbə Teatr Studiyası bu yaxınlarda "Qərbi Azərbaycana qayıdış" festival-konqresin açılış mərasimində tamaşa-kompozisiyalar təqdim edib, maraqlı yallı və rəqs nömrələri ilə festivala öz töhfələrini verib. Eyni zamanda muxtar respublikada doğum günü olan şəhidlərin anım tədbirlərində müxtəlif kompozisiyaların nümayişi ilə iştirak edirik", – deyir Gülxarə Əhmədova.

Müsahibimiz vurğulayır ki, gələcək iş planları çox genişdir. Universitetdə keçirilən kütləvi tədbirlərdə iştirakımız daimidir. Hazırda Tofiq Seyidovun rejissoru olduğu "Möminə xatın" tamaşası üzərində işləyirik. "Qeyd edim ki, əldə etdiyimiz uğurların əsasında universitet rəhbərliyinin bizə yaratdığı şərait mühüm rol oynayır. Çalışacağıq ki, bundan sonra da öz işimizlə muxtar respublikanın təhsil və mədəniyyət sahəsinə töhfələrimizi verək", – deyə Gülxarə Əhmədova bildirdi.

✍ Aidə İBRAHİMOVA

# İşıqlı bir ziyalı, geniş elmi maraq dairəsi olan tədqiqatçı-alim



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin III, IV, V, VI çağırış deputatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Hüseyn Həşimli də çox təəssüf ki, bizlərə, onu sevən, özünün ən yaxını, doğması hesab edən minlərlə seçiciyə, tələbə kontingentinə, elmi ictimaiyyətə belə bir itkini yaşadanların sırasına qoşuldu. Biz onu itirməklə, belə demək mümkünsə, dayağımızdan ayrı düşəsi olduq. Heç birimizin ağlının ucundan da keçməzdi ki, həmişə etibar və vəfasına söz ola bilməyən Hüseyn son anda belə bir addım atası olacaq. Sən demə, taleyin qismətindən qaçmaq mümkünsüzmüş. Buna görə əziz dostumuzu, sirdaşımızı qınamaqda, bəlkə də, haqlı deyilik. Ancaq bizi yandıran, bağrımızın başına dağ çəkən odur ki, Hüseyn kimi əvəzsiz dostla vidalaşa bilmədik, məzarı başında sonsuz kədərimizi, nisgilimizi dilə gətirmək imkanımız olmadı. Yalnız doğma ocağının ağıllı və etibarlı qoruyucusu Turqaya qəhər boğa-boğa başsağlığı verə bildik. Mən yenə o fikirdəyəm ki, Allaha acıq getməsin, Hüseyn belə taleyə və qismətə layiq oğul deyildi. Aradan üç-dörd il ötsə də, mən onun vaxtsız ölümünə, sıralarımızı belə tez və gözlənilməz tərk etməsinə hələ də özümü inandıra bilmirəm.

Mən bu sətirləri yazarkən Hüseynin tədqiqat və araşdırma predmeti seçdiyi ədəbi şəxsiyyətə və mətnə münasibətində də belə bir səmimi, duyğusal yanaşmasını hiss edirəm. Sanki bu sadə və saf kənd uşağının ürəyində dünyanın, insanlığın dərd və qayğıları yerləşmişdi. O bu dünyaya ancaq xeyirxahlıq və mərhəmət missiyasını icra etmək üçün gəlmişdi. Nəinki özü, ailə üzvləri də, yaxın və doğmaları da Hüseynin bu missiyasına cani dildən qoşulmuşdu. Hüseyn belə bir təsiretmə gücünə və qüdrətinə malik qeyri-adi bir insan idi. Ömür vəfa qılsaydı, Hüseyn müxbir üzv və akademik də seçiləcəkdi. Buna heç kimin şübhəsi olmasın. O, sağlığında nadir, çoxlarına qeyri-adi görünəcək bir insanlıq nümunəsi və insanlıq akademiki idi. Məncə, bu Hüseyni insanlığın fövqündə saxlayacaq bir ali keyfiyyətdir. Bu saflıq, nəciblik, insani keyfiyyətlər onun şəxsində necə cəmləşmişdi, bunu izah etməyə səmimi etiraf edirəm ki, otuz beş ilin yaxın dostu, sirdaşı kimi çətinlik çəkirəm.

Hüseyn 1986-cı ildə ovaxtkı Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialını bitirmişdi. Culfa rayonunun Teyvaz kəndində anadan olan Hüseyn Həşimlinin orta məktəbdə bütün fənlərə səylə yiyələnməyi Naxçıvan kimi ucqarda yerləşən ali məktəbin qapılarını üzünə taybatay açmış, zəhmət və yuxusuz gecələr hesabına qazandığı uğurlar vaxtilə təhsil aldığı institutda pedaqoji fəaliyyət üçün zəmin yaratmış, pillə-pillə onu bu diyarda yetişən alimlər sırasında ən parlaq simalardan birinə çevirmişdi.

Mənim Hüseynlə tanışlığım keçən əsrin 80-ci illərinin ikinci yarısına təsadüf edir. 1986-cı ilin yaz semestrinin sonlarına yaxın təhsil aldığım Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin – Q. M. ) Filologiya fakültəsinin tələbələrinə “XX əsr Azərbaycan ədəbiyyatı”ndan mühazirə oxuyan sevimli müəllimimiz, professor Firudin Hüseynov Naxçıvan Pedaqoji İnstitutunda “Molla Nəsrəddin və realist-demokratik hərəkat” mövzusunda Tələbə Elmi Cəmiyyətinin xətti ilə konfransın keçiriləcəyini bildirən proqramla auditoriyaya girib orada tələbələrin də iştirak etməli olduğunu söylədi, “Kim konfransda məruzə ilə çıxış edə bilər?” sualı ilə auditoriyaya müraciət etdi. Heç kəsdən səs-səmir çıxmadı. Qrup nümayəndəsi kimi mən əlimi qaldırdım. Tez bir vaxtda ediləcək məruzənin mövzusunu və tezis şəklində planını hazırlayıb Firudin müəllimə təqdim etdim. Elmi rəhbərim kiçicik düzəlişi və qeydləri də nəzərə alınmaqla məruzəni hazırlamağa başladım. Təəssüf ki, yeni tədris ilinin başlanğıcını acı xəbərlə qarşılayası olduq. Unudulmaz müəllimimiz Firudin müəllimlə universitetdə vida mərasimində iştirak etdik. Yarımçıq qalmış mühazirəni Firudin müəllimin yaxın dostu, professor İnayət Bəktaşi aparası oldu. O dövrün qaydalarına görə, məruzənin elmi rəhbəri də elə İnayət müəllim təyin olundu. İnayət müəllim məni inandırmağa çalışırdı ki, mən oradan medalla qayıdacağam.

İlk dəfə Naxçıvana qatarla yola düşdüm. Sovet sərhədçilərinin az qala bir saatdan bir yoxlamaları, gözlərimizə tuşlanan projektorların gur işığı altında mənzilbaşına çatdıq. Plenar iclasda məruzə edəsi oldum. Məruzənin mövzusu belə idi: “Molla Nəsrəddin” məcmuəsi və XX əsrin əvvəllərində nəzəri-estetik fikir”. Sonralar həmin ali məktəbin rektoru, akademik kimi şöhrətlənən AMEA-nın prezidenti İsa Həbibəyli təşkilat komitəsinin üzvlərindən biri kimi konfransın işində fəal şəkildə iştirak edirdi. Hüseyn Həşimli komsomol, ya da həmkarların fəalı kimi qonaq tələbələrin yerləşməsi, proqram üzrə ədəbi-mədəni-kütləvi tədbirlərin bələdçisi və təşkilatçısı kimi iş aparan 20-21 yaşlarında enerjili bir gənc idi. Səhv etmirəmsə, o, institutu “əla” qiymətlərlə başa vurduğu üçün laborant, daha sonra da müəllim kimi saxlanılmışdı. Hüseynlə dostluğumuzun, ünsiyyətimizin tarixi o vaxta təsadüf edir.

Aradan neçə illər keçəndən sonra Hüseynlə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda “Ədəbiyyat nəzəriyyəsi”ndən miniumum imtahanı verəndə görüşdük. 1997-ci il idi. İmtahanı institutun o vaxtlar elmi işlər üzrə direktor müavini, professor Məhərrəm Qasımlı götürürdü. Onun aspirant və dissertantlar içərisində Hüseynin xüsusi fərqləndiyini elan etməyi də indiki kimi yadımdadır. O, özünəməxsus bir şəkildə Hüseynin cavablarını “əliyül-əla” kimi qiymətləndirdi.

Az sonra Hüseyn doktorluq mövzusu ola biləcək və doktorluq dissertasiyasının tələblərinə cavab verəcək “Azərbaycan ədəbiyyatında sentimentalizm” mövzusunda namizədlik dissertasiyası müdafiə etdi. Azərbaycan elminin nəhəng simalarından olan akademik Azad Mirzəcanzadənin Naxçıvana gələrək Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri kimi şəxsən özünün müdafiə şurasının iclasında iştirakı və elə oradaca Hüseynə iddiasında olduğu alimlik dərəcəsinin diplomunu təqdim etməsi barədə yarıciddi, yarıəfsanəvi söhbətləri mən də eşidənlərdən biriyəm.

Müdafiə Şurasının üzvlərindən birinin təklifinə digər bir nəfər də cəsarətə gəlib qoşulsaydı, Hüseyn birbaşa elmlər doktoru adına layiq görüləcəkdi. Burada mübahisəyə və müqayisəyə əsla səbəb axtarmaq yersiz bir cəhd idi. Bütün baş verənlərə rəğmən, o, qısa müddət ərzində (1986-2019-cu illərdə) universitetin sayılıb-seçilən müəllimlərindən biri oldu, burada laborant, baş müəllim, dosent, professor, dekan müavini (1998-2003-cü illər), az sonra tədris işləri üzrə prorektor (2003-2011) vəzifələrinə irəli çəkildi. 2007-ci ildə Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında xidmətlərinə görə “Əməkdar elm xadimi” fəxri adına layiq görüldü. Həmin ildə qardaş Türkiyənin “Azərbaycan və Türkiyə ədəbiyyatlarına xidmət ödülü” ilə mükafatlandırılması, Naxçıvan Dövlət Universitetində “İlin alimi” (2012) seçilməsi Hüseyn Həşimlinin elmi fəaliyyətinə qədirbilənliklə verilən yüksək dəyər və qiymət idi.

O, ara-sıra universitetin hesabat xarakterli sənədləri ilə bağlı Təhsil Nazirliyinin (indiki Elm və Təhsil Nazirliyinin – Q. M.) iclaslarında iştirak etmək üçün Bakıya gəlsə də, bu gəliş qısamüddətli, tələm-tələsik olardı, biz onunla vaxt tapıb bir çay süfrəsi arxasında söhbət etməyə belə imkan tapa bilməzdik. Daha dəqiq desək, Hüseyn bu çay dəsgahının böyüyəcəyindən, böyük bir qonaqlıq səviyyəsinə çatacağından, bizim guya xərcə düşəcəyimizdən həmişə ehtiyatlanırdı. Həmişə “iclasa çağırdılar”, “təcili iş çıxdı”, “Naxçıvana uçası oldum” kimi bəhanələr gətirərək bizim verəcəyimiz qonaqlıqlardan boyun qaçırardı, onun baş tutmasını əngəlləyirdi.

Hüseyn Həşimli geniş elmi maraq dairəsi olan bir tədqiqatçı-alim idi. Onun ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi, ədəbi əlaqələr, mətbuat tarixi, mətnşünaslıq sahələrindəki elmi axtarışlarının yekunu olan dərs vəsaitlərini, tədqiq və monoqrafiyalarını nəzərdən keçirmək belə bir həqiqəti əyani şəkildə təsdiqləyə bilər.

Bununla yanaşı, Hüseyn Həşimlinin ədəbi tənqidlə, xüsusən Naxçıvan ədəbi mühitində ədəbi tənqidin cari bədii gedişatı, təhlil və dəyərləndirməsi ilə bağlı elə obyektiv və prinsipial mülahizələri var ki, onlar ixtisasca tənqidçi olmayan tədqiqatçı alimin bu sahədə mötəbər söz demək səriştəsini (və səlahiyyətini!) əyani şəkildə təsdiqləyir. Açıq etiraf edək, ədəbi tənqidin növ və janr təsnifatının müəyyənliyi baxımından Hüseyn Həşimlinin mülahizələrində yanlış nöqtələr axtarmaq əbəsdir, o bu işi az qala riyazi dəqiqliklə ayırd etməyin yaxşı bir nümunəsini elm-nəzəri dövriyyəyə gətirməyə nail olurdu. Bu, əslində, ədəbi tənqidi ədəbiyyat əlavəsi və onun bir növü kimi təqdim edən nöqteyi-nəzərlərin tez-tez səsləndirildiyi bir dönəmdə problemə birdəfəlik elmi aydınlıq gətirmək cəhdi idi.

Tədqiqatçı-alim kimi onun ömür və tale barədə gizli, gözə görünməyən hissiyyat və düşüncələrini, yaxınlaşmaqda olan müdhiş hadisənin “xəbərdarlıq siqnallarını” işıq üzünə çıxardığı kitabların nəşr tarixi ilə paralel şəkildə addımlayan “tələskənliyi” necə də dürüst təyin edə bilir?! Ölümünə üç-dörd il qalmış səhhətindəki problemlərə, yaxın və doğmalarının itkisindən dolayı keçirdiyi kədər və iztirablara rəğmən belə iti və sürətli addımlarla (bir ildə üç-dörd kitab!) Hüseyn, görəsən, hara belə tələsirdi? İndi bu suala cavab tapmaq çox sadədir. Bu sirr və müəmmanın açılış və həllini Hüseynin ayrılıq və əbədi həsrətin yaxınlaşdığını iti fəhmlə duyması, əlindəki yarımçıq işləri tamamlamaq üçün bütün enerjisini son anda işə salmaq fürsəti dəqiq ifadə edir. Qısaca desək, bu cavabı Hüseyn özünün həyatı bahasına tapıb.

2016-cı ilin yayında, Naxçıvana yay və payız səfərlərimdə Hüseynlə keçirdiyimiz günlər heç yadımdan çıxmaz. Onunla birlikdə doğulub boya-başa çatdığı Culfanın Yaycı, Əbrəqunus, Əlincə, Xanəgah, Bənəniyar, Xoşkeşin və Qazançıya qədər olan bir neçə kəndlərini gəzdik, “Əshabi-kəhf” ziyarətgahına getdik. Professor Firudin Hüseynovun bacısı oğlu Bəhruz Məmmədovla, dosent İman Cəfərli, “Qeyrət” nəşriyyatının direktoru, mərhum şair Vaqif Məmmədov, rəhmətlik Sevindik Vəliyevlə tanışlıq o vaxtın xatirəyə dönən anları kimi yaddaşımda qalıb.

2023-cü ilin iyulun 20-dən avqustun 5-nə kimi Naxçıvanda oldum. Turqaya zəng edib Hüseynin harada dəfn olunduğunu, Teyvazda olsa belə ora getməyə bələdçilik etməsini xahiş etdim. Avqustun 1-də Turqayla Hüseyni (məzarını deməyə dilim gəlmir) ziyarət etmək üçün Naxçıvandakı şəhər qəbiristanlığına getdik. Məzarına tər qərənfillər düzdük, ruhuna dualar oxuduq. Hüseynli günlərimiz bir kinolenti kimi gözlərimizin önündən keçdi. Nə gizlədim, göz yaşlarımı saxlaya bilmədim.

Hüseynin məzarı başında “Qurani-Kərim”dən ayələr oxuyan molla hamımızı heyrətləndirən bir məlumat verdi. O bildirdi ki, demək olar ki, hər gün Hüseyn müəllimin məzarını ziyarətə gələnlərlə rastlaşır. Vaxtilə dərs dediyi tələbələr, qayğı və mərhəmət göstərdiyi insanlar, sosial-məişət problemlərini yoluna qoyduğu seçicilər Hüseyni unutmur, ona öz vəfa borclarını bildirmək üçün bura axışıb gəlirlər.

Hüseyn Həşimli haqqında Naxçıvan Televiziyasının istehsalı olan “Ədəbiyyata könül verən əbədi adam” adlı sanballı filmə televiziyanın “Youtube” kanalında baxdım. Filmboyu AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin, NDU-nun dosenti, şair Xanəli Kərimlinin, digər dost və həmkarlarının, o cümlədən Hüseynin övladları – İlkay xanımın və Turqayın ataları haqqında ürəkdolusu çıxışları ürəyimə bir təskinlik verdi. Sevindim ki, Hüseyn təkcə onlara səhiyyə və hüquq-mühafizə orqanlarında çalışacaq bir mütəxəssis olmaqla yanaşı, həm də ədəbiyyatı və sənəti dərindən duymağı öyrədib. Nə yaxşı ki onlar atalarını ailə-məişət çevrəsindən daha geniş və əhatəli bir miqyasda təqdim edə bilir, Hüseynin şəxsində elmi-nəzəri fikrin tanınmış bir nümayəndəsi haqqında bitkin və hərtərəfli təsəvvür yaratmağa nail olurlar.

İndi Naxçıvanın yeni bir tarixi yazılır, mükəmməl Naxçıvan ensiklopediyası yaradılır, mineral su ehtiyatları və təbii sərvətləri haqqında elmi-kütləvi nəşrlər həyata keçirilir. Əgər yaxın gələcəkdə bu diyarda yetişən şəxsiyyətlərdən ibarət bir soraq kitabı hazırlansa, tərəddüd etmədən, demək olar ki, mütləq həmin kitaba Hüseyn Həşimlinin adı düşəcək, elmi-pedaqoji fəaliyyəti ilə paralel şəkildə onun bənzərsiz, nadir şəxsiyyətindən də mütləq söz açılacaq. Hüseyn Həşimlinin işıqlı bir ziyalı, əvəzolunmaz bir şəxsiyyət kimi xatirələrdə qalması, daim anılması şübhəsizdir. Ancaq Hüseyni yaşadacaq, onu tarixin yaddaşına həkk edəcək bir təsəllimiz var: bu da onun zəngin elmi-nəzəri irsidir. Belə məqamda məşhur qəzəlxan Əliağa Vahidin bir beyti yada düşür:

*Həmişə mən varam aləmdə, ölmərəm Vahid,*
*Əsər ki, qaldı cahanda, o ölməmək kimidir.*

Səməd Vurğun demişkən: *“Bizdən ayrı düşənlərə, borcumuzdur bu ehtiram”.*

**Qürbət MİRZƏZADƏ**
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Yanvar-iyul ayları ərzində də gender bərabərliyi ilə bağlı tədbirlər diqqətdə saxlanılıb




Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2024-cü ilin yanvar-iyul ayları ərzində də gender bərabərliyi ilə bağlı tədbirlər diqqətdə saxlanılıb.

“Şərq qapısı” xəbər verir ki, gender bərabərliyini təşviq etmək, cəmiyyətdə qadın və kişilər arasında bərabər imkanlar yaratmaq məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. 2023-cü il ərzində Naxçıvan Muxtar Respublikasında gender bərabərliyinin təmin edilməsi vəziyyətinə dair hazırlanmış məlumatlar Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə göndərilib. Naxçıvan Muxtar Respublikası üzrə 160 bələdiyyədə gender komissiyaları yaradılıb. Komitə tərəfindən idarə, müəssisə və təşkilatların genderə məsul şəxsləri, Naxçıvan şəhəri üzrə bələdiyyələr yanında yaradılmış gender komissiyaları, Ordubad rayonu üzrə Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun üzvləri üçün təlim keçirilib. Ümumilikdə isə gender məsələləri ilə bağlı 3 maarifləndirici təlim və 1 tədbir keçirilib, 27 kişi və 61 qadın olmaqla, 88 nəfər yararlanıb, 77 maarifləndirici material paylanılıb.




## İngilis dili Təmayüllü Gimnaziyaya qəbul imtahanı keçirilib

Naxçıvan Dövlət Universitetinin İngilis dili Təmayüllü Gimnaziyasına qəbul imtahanı keçirilib.



“Şərq qapısı” xəbər verir ki, universitetin Xarici dillər fakültəsində muxtar respublikanın ümumtəhsil məktəblərinin 5-ci sinfini bitirən şagirdlər üçün keçirilən qəbul imtahanında, ümumilikdə, 233 şagird iştirak edib. İmtahanda Azərbaycan dili, riyaziyyat, ingilis dili, tarix və təbiət fənlərindən, ümumilikdə, test formatında 100 sual təqdim olunub. 2024-2025-ci tədris ilində muxtar respublika üzrə 60 şagirdin təhsil alacağı gimnaziyada tədris Azərbaycan dilində həyata keçiriləcək.

3 saat davam edən imtahanın sualları Naxçıvan Dövlət Universitetinin İmtahan Mərkəzi tərəfindən tərtib edilib. İmtahanlarda şagirdlərin təhlükəsizliyinin və sağlamlığının təmin edilməsi üçün Naxçıvan Muxtar Respublikası Daxili İşlər və Səhiyyə nazirliklərinin əməkdaşları prosesə cəlb olunub. 28 nəzarətçinin iştirak etdiyi imtahan 14 sinifdə aparılıb.

Qeyd edək ki, İngilis dili Təmayüllü Gimnaziyaya müsabiqə yolu ilə aparılan qəbul imtahanının nəticələri 2 gün ərzində universitetin internet saytında *(www.ndu.edu.az)* yerləşdiriləcək.

1 sentyabr 2024-cü il Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər günüdür

# Seçki marafonu – 2024

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər 45 seçki dairəsi üzrə keçiriləcəkdir.***

**Seçkiqabağı təşviqat aparılarkən sui-istifadə hallarına yol verilməməsi**

– Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Mülki Məcəlləsinə uyğun olaraq qeydə alınmış namizədlərin və siyasi partiyaların seçkiqabağı proqramlarında, yığıncaqlarda, mediada yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələr olmamalıdır.

***Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq seçkiqabağı təşviqat aparılarkən mediadan sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat formasında sui-istifadə qadağandır.***

– Əqli mülkiyyət haqqında qanunvericiliyi pozan təşviqat qadağandır.

– Seçkiqabağı təşviqatda bilavasitə yaxud dolayısı ilə iştirak edən namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyanın, onların səlahiyyətli nümayəndələrinin, habelə digər şəxslərin və təşkilatların seçiciləri aşağıdakı üsullarla ələ alması qadağandır:

– təşkilati işlərin yerinə yetirilməsi məqsədi istisna olmaqla seçicilərə pul vəsaiti, hədiyyələr və digər qiymətli materiallar vermək (döş nişanları, yapışqanlı nişanlar, plakatlar və nominal dəyərə malik olan digər təşviqat materialları istisna edilməklə);

– göstərilən təşkilati işi yerinə yetirən seçicilərə səsvermənin nəticəsindən asılı olaraq mükafatlandırmaq və ya belə mükafatlandırmanı vəd etmək;

– malların güzəştli satışını keçirmək, hər hansı malı (çap materialları istisna olmaqla) pulsuz vermək;

– əvəzsiz və ya güzəştli şərtlərlə xidmətlər göstərmək;

– seçkiqabağı təşviqat zamanı seçicilərə qiymətli kağızlar, habelə maddi sərvətlər, pul vəsaiti veriləcəyini vəd etmək yolu ilə, habelə qanunvericiliyə zidd olan digər əsaslarla xidmətlər göstərilməsi ilə təsir etmək.

– Seçki kampaniyasının gedişində qeydə alınmış namizədlərin, siyasi partiyaların vəkil edilmiş şəxsləri, səlahiyyətli nümayəndələri, habelə təsisçiləri, mülkiyyətçiləri, sahibləri və rəhbər orqanlarının üzvləri göstərilən şəxslər və təşkilatlar olan hüquqi şəxslərin kommersiya və digər fəaliyyətinin reklamı səsvermənin başlanmasına 24 saat qalmış dayandırılmalıdır.

– "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 64.1-ci və 64.2-ci maddələrində göstərilmiş televiziya və radio yayımçılarının proqramları və dövri nəşrlərin redaksiyaları namizədin ləyaqətinə, şərəfinə zərər vuran saxta məlumatların yayılmasına imkan verməməlidirlər.

– Qeydə alınmış namizəd "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 75.1-75.3-cü maddələrinin tələblərini pozduqda müvafiq seçki komissiyası hüquq-mühafizə orqanlarına və ya məhkəməyə müraciət etməlidir, digər dövlət orqanları da bu hüquqdan istifadə edə bilərlər.

***Qeydə alınmış namizəd və siyasi partiya seçkiqabağı təşviqatın aparılmasının seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş digər qaydalarını pozduqda müvafiq seçki komissiyası təqsirli şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi üçün müvafiq tədbirlər görür. Seçki komissiyasının müvafiq qərarı mediada dərc olunur.***

Seçki qanunvericiliyində müəyyənləşdirilmiş seçkiqabağı təşviqatın aparılması qaydalarını televiziya və radio yayımçıları və dövri nəşrlərin redaksiyaları pozduqda Mərkəzi Seçki Komissiyası qanunsuz təşviqat fəaliyyətinin qarşısının alınması və televiziya və radio yayımçılarının, dövri nəşrlərin redaksiyalarının, onların vəzifəli şəxslərinin qanunvericiliklə müəyyənləşdirilmiş məsuliyyətə cəlb edilməsi barədə təqdimatla hüquq-mühafizə orqanlarına, məhkəməyə və müvafiq icra hakimiyyəti orqanlarına müraciət etmək hüququna malikdir.

**Vətəndaşların seçki hüquqlarının pozulmasına görə məsuliyyət**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, Mülki Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq cinayət, mülki və ya inzibati məsuliyyətə aşağıdakı şəxslər cəlb edilə bilərlər:

– zor tətbiqi ilə, aldatma, hədə ilə vətəndaşın seçmək və seçilmək hüququna mane olanlar;

– seçkinin nəticələrinə təsir məqsədilə vəzifə səlahiyyətlərindən sui-istifadə edənlər;

– seçiciləri ələ alanlar, yəni "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 75.6-cı maddəsi ilə qadağan edilmiş hərəkətləri edənlər;

– qeydə alınmış seçicilər barəsində məlumatları vaxtında rəsmiləşdirməyənlər və dəqiqləşdirməyənlər;

– namizədlər barəsində bilərəkdən yalan məlumatlar yayanlar və ya namizədlərin şərəf və ya ləyaqətini təhqir edən digər hərəkətləri edənlər (bu müddəa söz və fikir azadlığının məhdudlaşdırılması üçün əsas ola bilməz);

– seçki komissiyaları üzvlərinin, müşahidəçilərin, vəkil edilmiş şəxslərin, namizədlərin, siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, media subyektləri nümayəndələrinin hüquqlarını pozanlar, o cümlədən seçki sənədlərinin surətlərinin və məlumatların vaxtında alınması və seçki sənədlərinin surətlərinin təsdiqi ilə bağlı hüquqlarını pozanlar;

– seçkiqabağı təşviqatın aparılması qaydalarını pozanlar, o cümlədən səsvermə gününə bir gün qalmış və ya səsvermə günü təşviqat aparan şəxslər;

– "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun müəyyən etdiyi qaydaların pozulmasına səbəb olan kommersiya və digər reklamları hazırlayanlar və yayanlar, yaxud xeyriyyə xidmətləri göstərənlər;

– seçki kampaniyasının maliyyələşdirilməsinin seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydalarını pozanlar;

– seçki komissiyasının işinə mane olanlar və ya seçki komissiyası üzvlərinin öz vəzifələrinin yerinə yetirilməsi ilə bağlı fəaliyyətinə qeyri-qanuni müdaxilə edənlər;

– seçki məntəqələrində səsverməyə mane olanlar; səsvermənin gizliliyini pozanlar;

– seçiciləri öz iradələrinə zidd səs verməyə məcbur edənlər;

– seçki sənədlərini saxtalaşdıranlar, saxta sənədlər tərtib və təqdim edənlər (seçki qutularına bir şəxs tərəfindən birdən çox seçki bülleteni salmaq halları da daxil olmaqla), səsləri bilərəkdən qeyri-düzgün hesablayanlar və ya seçkinin yekunlarını bilərəkdən təqdim və ya dərc etməyənlər;

– vətəndaşların seçici siyahıları ilə tanış olmaq hüququnu pozanlar;

– vətəndaşlara başqa şəxslərin əvəzinə səs vermək imkanı yaratmaq məqsədilə seçki bülletenləri verənlər, vətəndaşa doldurulmuş seçki bülleteni verənlər və ya birdən artıq seçki bülleteni alınmasına imkan yaradanlar;

– seçki qanunvericiliyində nəzərdə tutulmuş hallarda seçkilərdə iştirak etmək üçün məzuniyyət verməyən işəgötürənlər;

– seçki komissiyalarının "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun pozulması ilə bağlı verdiyi məlumatları yoxlamayan dövlət orqanlarının vəzifəli şəxsləri;

– seçkilərdə iştirak etdiyi müddətdə xidməti vəzifələrinin icrasını dayandırmayan dövlət və ya bələdiyyə xidmətində olan qeydə alınmış namizədlər;

**Cərimələrin tətbiq edilməsi**

Məntəqə və dairə seçki komissiyaları, Mərkəzi Seçki Komissiyası namizəd, qeydə alınmış namizəd, habelə onların və siyasi partiyanın səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri barəsində "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununda nəzərdə tutulmuş hallarda qanun pozuntularına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati xəta protokolu tərtib etmək və cərimənin tətbiqi üçün məhkəməyə müraciət etmək hüququna malikdirlər.

*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti*

## Seçkilərdə qadınların fəallığının yüksəldilməsinə həsr olunmuş tədbir keçirilib



Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, "Bərabər İnkişaf Naminə" Koalisiyanın birgə təşkilatçılığı və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının əməkdaşlığı ilə "Milli Məclisə seçkilərdə qadınların fəallığının yüksəldilməsi" mövzusunda görüş keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

İctimai-siyasi fəallığı ilə seçilən qadınlarla görüşdə açılış nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, bu gün qadın hüquqlarının qorunduğu Azərbaycanda seçki hüququ qanunvericiliklə təsbit olunur. Ölkəmizdə seçki hüququ qanunla təsbit edildikdən sonra qadınların seçkili və icra orqanlarında iştirakı aktivləşib. Mövcud mənzərə qadınların seçmək və seçilmək hüququnun təmin edilməsinə görə Azərbaycanın regionda lider olduğunu göstərir.



Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, "Azərbaycan qadınları" Koalisiyasının və "Gender və iqtisadiyyat" İctimai Birliyinin sədri Təranə Kərimova dövlət qadın siyasətindən danışıb, qadınların həm dövlət idarəçiliyinin müxtəlif iyerarxiyalarında, həm də seçkili orqanların işində öz iradələrini ifadə etmək əzmində olduqlarını qeyd edib.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova çıxış edərək bildirib ki, Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoyub. Ölkəmizin sosial-iqtisadi tərəqqisinə, hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəldilməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə hədəflənmiş müstəqil və uzaqgörən siyasət sayəsində istər ölkəmizdə, istərsə də bütövlükdə regionumuzda yeni reallıqlar yaranıb, qarşımızda yeni perspektivlər açılıb. Bütün bunlar da qadınların gücünü artırır, onları cəmiyyətdə və eləcə də seçkilərdə daha fəal olmağa sövq edir.

Bakı Dövlət Universitetinin dosenti, "Kamillik" İctimai Birliyinin sədri Əsmətxanım Məmmədova, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əkrəm Hüseynzadə və şəhid leytenant Emin Sadiqovun anası Gülşad Rüstəmova keçirilən tədbirin qadınların seçkilərdə azad və sərbəst fəaliyyətinin təkmilləşdirilməsi, fəallığının artırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar. İştirakçılar seçki hüququnun konstitusion əsasları, onun təmin edilməsi və həyata keçirilməsi formaları, eləcə də seçkilərdə qadınların fəallıqlarını daha da artırması üçün imkanlar barədə ətraflı məlumatlandırılıb.

## Penitensiar Xidmətdə seçkilərlə bağlı seminar-müşavirə olub

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə növbədənkənar seçkilərlə əlaqədar avqustun 23-də Penitensiar Xidmətin Qarşıdq Rejimli Cəzaçəkmə Müəssisəsində seminar-müşavirə keçirilib.



Penitensiar Xidmətin rəhbərliyi, Dairə Seçki Komissiyasının nümayəndələri, xidmətin məsul əməkdaşları, İstintaq təcridxanasının və cəzaçəkmə müəssisələrinin rəisləri, habelə Mühafizə taburunun komandirinin iştirak etdiyi tədbir cəzaçəkmə müəssisəsində seçkilərin təşkili və səsvermənin keçirilməsinə həsr olunub.

Seminar-müşavirədə ədliyyə nazirinin müavini – Penitensiar Xidmətin rəisi, ədliyyə polkovniki Emin Kazımov Azərbaycan Respublikası seçki qanunvericiliyinin tələblərinə əməl edilməklə cəzaçəkmə müəssisəsində seçicilərin ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə azad şəkildə səsvermədə iştiraklarının təmin edilməsi istiqamətində atılan addımlardan danışıb.

Sonra Penitensiar Xidmətin Qeydiyyat bölməsinin rəisi, ədliyyə mayoru Musa Hüseynov, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsinin böyük məsləhətçisi Səfər Hüseynov və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə növbədənkənar seçkilərin keçirilməsi üçün yaradılmış 14 saylı Qarabağlar Dairə Seçki Komissiyasının sədri İlham Abbasov çıxış ediblər. Çıxışlarda qapalı müəssisələrdə əlverişli seçki mühitinin yaradılması, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması da daxil olmaqla bütün prosedurlar aydın və ətraflı izah edilib.

Seminar-müşavirənin sonunda iştirakçıların sualları cavablandırılıb.

***“Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli Sərəncamı görkəmli dövlət xadimi Heydər Əliyevin “Azərbaycanın incisi” adlandırdığı bu qədim yurd yerinə hərtərəfli qayğının davamlı ifadəsidir. Doğrudan da, Ordubad qədim abidələri, köhnə tikililəri, planlaşdırılmış şəhər quruluşunun qorunması sahəsində Azərbaycanın nadir şəhərlərindən biridir.***



# Yeddi meydan, yeddi çinar, yeddi kəhrizli qədim məhəllələr



Biz də bu günlərdə “Şərq qapısı” kollektivi kimi həmin məkana üz tutduq. Söhbət bu qədim yurd yerindən – Ordubaddan gedir. Bu rayon təkcə bizim üçün deyil, həm də buraya üz tutan hər bir qonağın sevimli ünvanına çevrilib. Bölgənin göylərə ucalan dağları, mənzərəli dağ ətəkləri, yaşıllıqlara bürünmüş çay yamacları, dişgöynədən suyu olan bulaqları, məhsuldar meyvə bağları buraya xüsusi gözəlliklər bəxş edib.

Bu gözəlliklərin hər qarışını gəzib kəşf edərək yazıya almaq üçün, sözün düzü, çox tələsirdik. Budur, artıq rayon mərkəzində, daha dəqiq desək, ordubadlıların “Çinar” adlandırdıqları çayxananın həyətindəyik, qoca çinarın kölgəsində dincələn bir sakinə yaxınlaşırıq. Öyrənirik ki, həmsöhbətimiz olacaq bu ordubadlı ziyalı Azər Əliyevdir. Məlumat üçün onu diqqətinizə çatdıraq ki, uzun illər rayonun mədəniyyət idarəsinə rəhbərlik etmiş qədim abidələri, tikililəri, küçələri, meydanları, onların adları ilə məşğul olaraq müəyyən elmi qənaətlərə gəlmiş Azər müəllimin maraqlı müsahib olduğunu elə tanışlığımızın ilk anlarından hiss etdik. Azər müəllimin söhbəti: Ordubad şəhəri eyniadlı çayın dərin dərələri ilə iki hissəyə bölünmüş, girintili-çıxıntılı ətrafında yerləşir. Çayın sağ sahilində yerləşən keçmiş mərkəz öz əhəmiyyətini itirdiyindən XVII əsrdə mərkəz funksiyasını sol sahil yerinə yetirməyə başlayır. Şəhər tikililəri, yan küçələr, dalanlar, bağ əkinləri ətəklərdə çayın axını boyu xüsusi amfiteatr yaradır. Şəhərin küçələri, meydanları, şəhər boyu yaşıllıqlar, nəhəng çinarlar çay boyunca yerləşib.

Müsahibimizin sözlərinə görə, keçmişdə Ordubadçayın (“Dübəndi” də adlanır) sağ sahilində, yüksək təpə üstündə “Qala” saray kompleksi fəaliyyət göstərib. Şəhərin bu hissəsi daha qədim hesab edilir və şəhərin birinci mərkəzi sayılırmış. Sonralar şəhər mərkəzi Ordubadçayın sol sahilinə keçir. Hazırkı şəhər mərkəzi Cümə məscidinin ətrafında yerləşib.

Azər müəllim diqqətimizə çatdırır ki, şəhər dəqiq plan quruluşuna sahibdir. Belə ki, bütün ətraf yollar şəhərin mərkəzinə doğru uzanır. İlk baxışdan qarmaqarışıq görünən yollar diqqətlə baxdıqda şəhərin mərkəzinə sistemli şəkildə birləşir. Bir qədər əvvəl adını çəkdiyimiz Cümə məscidi şəhərin ən qədim tikililərindəndir. Onun ətrafında yüksək ruhani mədrəsə məktəbi və ticarət mərkəzi olan – Qeysəriyyə Ordubadın ictimai mərkəzini təşkil edir. Əsas magistral kimi Heydər Əliyev prospekti dəmiryol vağzalı ilə şəhər mərkəzini birləşdirir. Bu prospektdə hazırda ticarət və dövlət müəssisələri olan tikililər yerləşir.

Azər Əliyev deyir ki, Ordubadın planlaşdırılmasının xarakterik xüsusiyyətləri çoxdur. Bütün küçələrin iki və üçüncüsünü, bəzən də dördüncüsünü yerləşdiyi ərazidən asılı olaraq balaca meydanlar birləşdirir. Bu meydanlar müxtəlif məscid, çeşmə və qocaman çinarların ətrafında salınaraq şəhərin əsas elementlərini ansambl şəklində birləşdirir. Şəhər meydanlarının yerləşməsi şəhərin məhəllələrə bölünməsi ilə bağlıdır. Meydanlar qəflətən ensiz, qəribə çıxışları olan küçələrdə yerləşir. Maraqlıdır ki, bu günə qədər də burada köhnə yaşayış məhəllələrinin adları qorunub saxlanılır. Şəhərin quruluşunda təşkil olunmuş nizamlı yaşayış məhəllələri, balaca məhəllə meydançaları ilə əhatə edilmiş xidmət tikililəri ilə təmin olunmaqla izlənilir. Şəhərdə köhnə məhəllə adları – Ambaras, Kürdətal, Mingis, Sərşəhər, Üçtürləngə adları indi də yaşadılır. Şəhər əhalisi sağ sahil hissəsində 2 böyük məhəlləni – Yuxarı Ambarası və Aşağı Ambarası olduğu kimi qoruyub saxlayıb. Qalan məhəllələr isə Ordubadçayın sol sahilində yerləşir. Onların arasında ən böyüyü Sərşəhərdir ki, “şəhərin baş hissəsi” mənasını bildirir. Burada bu vaxta qədər qorunub saxlanılan ibadət evləri, məscidlər var.



Azər Əliyevin sözlərinə görə, sahəsi böyük olmayan məhəllə məscidləri xalq arxitekturasının elementlərini özündə saxlayıb. Şəhərin bütün məscidlərində, yaşayış evlərində memarlıq üsulları, dərin oxvari fasad-eyvanlar, düzbucaq şəklində özüllər, bir də müxtəlif ağac və şəbəkə işləmələr ilə izlənilir. Bu məscidlərdə mehrablar XVII-XVIII əsr yaşayış evlərinin daş buxurlarını xatırladır. Məscidlərdə minarələr yoxdur. Bu da şəhərin relyefi ilə əlaqədardır ki, məscid damları minarələri əvəz edir. Minarələrin yerinə məscid damlarında meydançalar düzəldilib ki, ora balaca pilləkənlərlə qalxılır.

Öyrənirik ki, Ordubad şəhərinin yaşayış binalarının memarlıq üslubunun analoqu olmadığı üçün ölkəmizin bütün bölgələrindən özünəməxsusluğu ilə seçilir. Ordubadın yaşayış evləri orta əsrlərə xas olan qapalı malikanə formasındadır, xarici dünyadan tam təcrid olunması ilə seçilir. Təbii iqlim şəraitinin əlverişli olması evlərin həyətində meyvə bağlarının salınması ilə şəhərin ümumi planında öz əksini tapıb. Burada məişət və bəzən təbii iqlim xüsusiyyətlərinə görə maraqlı yaşayış evləri tikilib. Çox diqqətçəkən cəhətlərdən biri yaşayış evlərinin giriş qapılarına xüsusi qapı zənglərinin vurulmasıdır ki, bunlar da müxtəlif metal məmulatlardan bəzəkli şəkildə hazırlanırdı. Qadınlar üçün hazırlananlar “Zəncirbab”, kişilər üçün hazırlananlar isə “Taqqılbab” adlanırdı. Onların sayının çoxluğu Ordubadın memarlığının çoxşaxəliliyindən xəbər verir.



Küçədən ailə məişətinin təcridi cəhdi yaşayış evlərinin kompozisiyasında da özünü göstərir. Ordubadda ayrı-ayrı yaşayış evlərinin tikilişində kompozisiya prinsipləri ailənin tələbatı ilə sıx bağlıdır. Elə buradan da planların həlli və forma müxtəlifliyi yaranıb.



Azər Əliyev onu da diqqətimizə çatdırır ki, Ordubadda əhalinin arasında ticarətçilərin fərqli cəhəti şəhərin varlı insanlarının arasında ikimərtəbəli evlərin geniş yayılmasına səbəb olmuşdur. Məhz tacir evləri məxsusi olaraq Azərbaycan şəhərlərinin simasında Ordubadı fərqləndirir. Bu evlərin memarlıq üslubunda səkkizkünclü, çoxkünclü və düzkünclü, şəkilli, trapesiya formalarını görə bilərik. Səkkizguşəli girişlər, yarımpərgar və səkkizguşəli çıxıntılar xüsusi maraq doğurur.

Müsahibimizin sözlərinə görə, Ordubadda bütün evlər çiy kərpicdən ibarətdir. Bu tikililərin örtüyü hamar, yanlarda bəzi çıxıntılarla müşayiət olunur. Bütün yaşayış tikililərində ümumi kompozisiya ilə yanaşı, ənənələrə uyğun xüsusi planın tələblərinə cavab verən çöl görünüşü diqqəti cəlb edir. Evlər bir qayda olaraq küçəyə birləşir, sahənin çöl görünüşünü tamamlayır. Ordubad evlərinin çoxunun həyətində 3-5 metr dərinlikdə çeşmələr yerləşir. Onlara giriş aşağıya doğru yönəlmiş pilləkənlərlə müşayiət olunur ki, bunlar da “Qırxayaq” adlanır. Bütün bu çeşmələr kəhriz sistemi ilə birləşdirilib. İstənilən evin həyətində daşdan göl və sıx salınmış bağla yanaşı, üfüqi şəkildə özüllərdə salınmış üzümlüklər (talvarlar) diqqəti cəlb edir.

Azər Əliyev deyir ki, Ümummilli Liderimiz Heydər Əliyev Ordubadı “Azərbaycanın incisi” adlandırmışdır. Elə buna görə də bu nadir şəhərin qorunması və gələcək nəsillərə çatdırılması bu gün üçün mühüm məsələlərdən biridir.

Azər Əliyevlə maraqlı söhbətimizdən sonra rayon mərkəzində səyahətimizi davam etdiririk. Məhəllələrin birində təsadüfən qarşılaşdığımız yaşlı sakinlərdən biri ilə hal-əhval tuturuq. 84 yaşlı Seyfəddin Əhmədov deyir ki, bu məhəllədə böyüyüb. Bu məhəllənin tarixinin ən qoca şahidlərindəndir: – Keçmişdə buranın adı “Varsan” adlanırdı. Çünki bu məhəllədə ancaq varlı insanlar yaşayırdı. Sonradan isə adı dəyişib, ordubadlı ziyalı Qaffar Babayevin adı verilib. Seyfəddin baba deyir ki, Ordubad şəhərinin məhəllələrini digər yerlərdən fərqləndirən cəhət yeddi meydan, yeddi çinar, yeddi kəhrizin bir arada olmasıdır. Bu məhəllədəki evlərin tarixi ta qədimə gedib çıxır. Burada gördüyünüz evlərin bir neçəsinin 400 ildən çox yaşı var. Evlərin hər birinin qapısı uzunömürlü olsun deyə cəviz ağacından düzəldirdilər.

Ordubada səyahətimizdən nə öyrəndik? Gəlinən nəticələr çoxdur. Başlıcası isə bu qədim yurd yerində tarixə, milli-mənəvi dəyərlərə, yaşı min illərlə ölçülən adət-ənənələrə böyük ehtiram bu gün də yaşadılır. Ölkə Prezidentinin adıçəkilən Sərəncamı isə bu istiqamətdə yeni addımların atılacağını daha da sürətləndirib.

**Bülbül QULİYEVA**

# Bura Naxçıvandır



Bura Naxçıvandır; siz bu ünvana qədəm qoyduğunuz andan nizam-intizamın hakim olduğu, səliqə-sahmanın, sakitlik və harmoniyanın özünü göstərdiyi bir şəhərə gəldiyinizi hiss edəcəksiniz. Bu yurdun bir tərəfindən – Sədərəyindən Ordubadına qədər kəndbəkənd, şəhərbəşəhər qonaqpərvərliyin, insansevərliyin düşüncələrə hakim olduğunu, bu yurdun insanlarının – naxçıvanlıların təəssübkeşliyini, halal ruzi üçün canla-başla çalışmağın hər şeydən üstün tutulduğunu öz gözlərinizlə görəcəksiniz. Qarış-qarış gəzdikcə hər daşında minillik tarixin uyuduğunu, hər guşəsində hələ neçə-neçə sirrin açılmadığını biləcək, bəşəriyyətin ikinci həyatının məhz buradan – Nuhçıxandan pərvəriş tapdığına şahid olacaqsınız. Şəhərin abad, bir o qədər də qədim küçələri ilə addımladıqca sanki Nuh babamızın bəşəriyyətin qulaqlarına pıçıldadığı o sehrli sözləri eşidəcəksiniz. Möminə xatın məqbərəsi qarşısında dayanıb qadın ucalığına, qadın ehtişamına verilən dəyərin, qiymətin bariz nümunəsini görəcək, Açıq Səma Altında Muzeyi gəzdikcə qədim zamanlardan üzübəri qanlı-qadalı illərlə tarixdə qalan dövrlərin şahidi olacaqsınız. Əlləriniz daşdan yonulmuş qoç abidələrinə toxunduqca zaman və məkan anlayışı sizi bir anlıq tərk edəcək, düşüncələriniz sizi orta əsrlər Azərbaycanına gətirib çıxaracaq. İzləyəcəksiniz Şah İsmayıl Xətainin Şərur düzündəki qanlı cəngini, Sara xatının Vətəninin bütövlüyünü qorumaq naminə əsl türk qadınına yaraşan şəkildə, öz kübarlığı və zərafəti ilə qardaş davasına son vermək üçün atdığı o böyük addımı. Düşüncələrinizin arasında bir anda şairə Heyran xanımın doğma el-oba həsrəti ilə qubar bağlamış sinəsindən qopan şeirlər alacaq sizi öz ağuşuna, gözləriniz bir anda el qızının qulağındakı tay sırğaya sataşacaq. Siz onda soruşun, Heyran xanımdan: "Ey qərib Vətənin qəmli bülbülü, bəs o sırğanın tayı hanı?" Xan qızı isə söyləsin sizə: "Bu sırğanın bir tayı doğma yurdumda – Naxçıvanımda, sevdiyimin qanlı ovuclarında qaldı".







Bura Naxçıvandır; Günəşin al şəfəqləri Araz çayı boyunca qüruba əyiləndə, bu ehtişamlı şəhərin axşamları insanlarla dolu olur. Hər fəsildə görkəmini dəyişən bu mənzərəyə gözdolusu tamaşa etdikcə gördüklərin, eşitdiklərin səni fərqli düşüncələrə aparır. Düşünürsən; görəsən, bu sakitliyin, insanların münasibətindəki səmimiliyin səbəbi nədir? Park-xiyabanlardakı təmizliyin, şəhərdəki nümunəvi nizam-intizamın, səliqə-sahmanın memarı, yaradıcısı kimdir? Tanıdıqca, qarış-qarış gəzdikcə yurdumuzun dörd tərəfini, anlayırsan ki, doğma torpağı, doğulduğun eli, obanı səndən, məndən, bizdən daha yaxşı kim qoruya bilər? Yüz illərlə yox, min illərlə belə düşmənlə üz-üzə dayansan da, mübarizcə, qəhrəmanca, öz övladın kimi Vətənini qorumasan, onun keşiyində dayanmasan, o zaman bir əsim yeldən, bir ovuc quru torpaqdan başqa nə qalar geriyə? Nə qalar bizdən sonra gələnlərə...







Bura Naxçıvandır; süfrəsi açıq, çörəyi bərəkətli, çöhrəsi nurlu insanların yurdu. Bu diyarı qarış-qarış gəzdikcə, sözünə, söhbətinə qulaq verdikcə sanki uzun qış gecələrində nənələrimizin danışdığı o şirin, duzlu-məzəli nağılları yada salacaq, sirli-sehrli məmləkətin ağuşunda ustad Məmməd Arazın "Bir ocaq başında biz isinməsək" misralarını xatırlayacaqsınız. Hüsnünə söz çələngi toxunan qədim elimizin hər daşını, qayasını dinlədikcə böyük tarixə işıq tutan mətləblərdən agah olacaq, dövri-qədimdən bu torpaqda binə qurmuş ata-babalarımızın xeyir-duası ilə məmləkətimizi yenidən tanıyacaqsınız…

*(ardı var)*

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Qəbul imtahanında 600 balı keçən bacı-qardaş

"Şərq qapısı"nın qonaqları Babək rayonunun Zeynəddin kənd tam orta məktəbinin məzunları – bacı-qardaş Səbinə və David Əliyevlər artıq arxada qalmış qəbul imtahanından yüksək nəticə əldə ediblər: David 601, Səbinə isə 629 bal toplayıb.

İmtahandan öncə yüksək bal toplayacağına inanan David deyir ki, bunun səbəbi mütəmadi olaraq sınaq imtahanlarında iştirak etməsi və öz üzərində ciddi çalışmasıdır: "II ixtisas qrupu üzrə imtahan verdim və yüksək bal topladım. İmtahana bacımla birlikdə hazırlaşırdıq. Əslində, bu bizim üçün bir stimul oldu. Bir-birimizə söz verdik ki, çalışıb yüksək nəticə əldə edək. Çətinlik çəkdiyimiz mövzularda da bir-birimizə dəstək olduq".



Səbinə Əliyeva deyir: "Qarşıma məqsəd qoymuşdum ki, qəbul imtahanında 600 balı keçəcəyəm. Buna inanırdım və mənimlə bərabər yaxınlarım da bu yolda mənə inandıqlarını deyirdilər. Bu yola qardaşımla çıxdım, o mənə çox dəstək oldu. Həmçinin bizə hər zaman dəstək olan valideynlərimə və müəllimlərimə minnətdarlığımı bildirirəm".

Onu da qeyd edək ki, David Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat (ingilis dilində), Səbinə isə həmin ali təhsil ocağının Xarici dil müəllimliyi (ingilis dili) ixtisaslarına dövlət sifarişi ilə qəbul olunublar.

Biz də tələbə adını qazanan hər iki gəncə gələcək həyat yollarında uğurlar arzulayırıq.

✍ **Aygün RÜSTƏMOVA**

## Məktəblərdə təhsilalanlar üçün geyim formaları bu ildən necə tətbiq olunacaq?

Bununla bağlı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi aparatının məsləhətçisi Ramalə Niftiyeva "Şərq qapısı"na açıqlamasında bildirib ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli Qərarı ilə "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri" təsdiq edilmiş və bu sənəddə məktəblər üçün 4 rəngdə geyim formasının nümunəsi təklif olunur: "Geyim forması dəsti məktəbin pedaqoji şurasının qərarı ilə ən geci martın 1-dək müəyyən olunur və ən azı 3 tədris ili ərzində dəyişilməz olaraq tətbiq edilir. Məktəblərin sifarişi əsasında bu sənədin əlavələrində qeyd edilən rənglərdən və modellərdən istifadə olunmaqla yalnız bir geyim forması dəsti tətbiq olunur".



Ramalə Niftiyevanın sözlərinə görə, burada diqqət edilməli əsas məqam ondan ibarətdir ki, sifariş verilən və ya alınan geyim formaları təbii və keyfiyyətli parçalardan tikilməli, təhsilalanların sağlamlığına mənfi təsir göstərməməli, həmçinin etiketində istifadə edilən parçanın tərkibi barədə məlumat və "məktəbli forması" sözləri yazılmalıdır. Geyim formasının üzərində (ön tərəfinin sol yuxarı hissəsində və ya sol qol hissəsinin yuxarı kənar tərəfində) məktəbin emblemi əks oluna bilər. Bu sənədin tələblərinə təhsilalanlar tərəfindən riayət edilməsinə isə məktəbin rəhbərliyi tərəfindən nəzarət edilir.

"Təhsilalanların valideynləri və ya digər qanuni nümayəndələrin diqqətinə çatdırmaq istəyirik ki, məktəbli geyim formalarının satın alınması və ya sifarişi ilə bağlı Təhsil Nazirliyinin hər hansı istehsalçı ilə razılaşması mövcud deyildir. Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərən və formaların satışını həyata keçirən satış məntəqələrindən öncədən qeyd etdiyimiz meyarlara diqqət etməklə təhsilalanlar geyim formaları ilə təmin edə bilərlər", – deyən Ramalə Niftiyeva qeyd edib.

✍ **Bülbül QULİYEVA**

## İtmişdir

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşamış Əliyev İlham Əkbər oğlunun adına olan JN-585$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Aşağı Əndəmic kənd sakini Əliyev Ədalət Aslan oğlunun adına olan JN-240$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Daşarx kənd sakini Məmmədov Səfər Məhərrəm oğlunun adına verilmiş JN-007$^{A}$ nömrəli şəhadətnamə və 384 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Həmzəli kənd sakini Fərzəliyeva Natella Vəli qızının adına verilmiş 102013013703-10301 reyestr nömrəli fərdi yaşayış evinin texniki pasportu və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Muğancıq-Mehrab kəndində Quliyev Bəhruz Yusif oğluna məxsus JN-202$^{A}$ nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Hüseyinov İsmayıl Elmidar oğlunun adına olan MN-0054096 seriya nömrəli kapitanın hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Heydərov Bəhlul Əbdüləli oğlunun adına olan 0053352 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Mədətov Xaliq Mədət oğlunun adına olan VÖEN itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Külüs kəndində Qəhrəmanov Rəşid Novruz oğlunun adına verilmiş JN-245$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, K.Seyidov küçəsi, bina 4, mənzil 14-də yerləşən Həsənov Nüsrət Firudin oğlunun adına olan 102011000040-05101-093004 nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Məzrə kənd sakini Abbasov Bayram İsa oğlunun adına olan JN-053$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 5-ci küçə, ev 10-da yaşamış Şahmərdanova Xanım Abdulla qızının adına olan evin 2000 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Sərxanlı kənd sakini Şıxəliyev Elxan Rəşid oğluna məxsus fərdi yaşayış evinin 102013000824-10301 reyestr nömrəli hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 020065441
Çapa imzalanmışdır 00:00
Nömrəyə məsul: Aidə İbrahimova
Məcid Əkbərov
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 251